

# YAXIN ŞƏRQİN SÖNMƏYƏN ATƏŞİ

Həsən Nəsrullahın öldürülməsi ilə İranla İsrail arasında gərginlik növbəti mərhələyə daxil olub. İran İsrailə yeni raket zərbələri endirib. İsrailin Baş naziri Benyamin Netanyahu İranın İsrailə raket hücumunu "böyük səhv" adlandırıb.

İndi İsrailin İranın raket hücumuna cavabının necə olacağı hər kəsi düşündürür. Bununla bağlı iki hədəf ola bilər. Birincisi, İsrail İranın nüvə obyektlərinə zərbələr endirəcək, ikincisi, daha real olanı isə, neft bazalarının vurulmasıdır.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

5 OKTYABR ŞƏNBƏ 2024 № 38 (4189) Qiyməti - 40 qəpik www.kaspi.az






## MƏNZİL ALMAQ İSTƏYƏNLƏRİN YENİ ÜMİDİ

Evsiz vətəndaşların sosial ipoteka faizlərinin aşağı salınması ilə bağlı gözləntilər var. Rəsmilər son vaxtlar bu istiqamətdə müsbətə doğru siqnallar versələr də, ekspertlərin məsələ ilə bağlı fikirləri haçalanır.

SƏHİFƏ 7-də



## YOLLARIMIZIN YENİ, ZOLAQLI PROBLEMİ

Avtobus zolaqları marşrutların intensivliyini tənzimləsə də, müəyyən problemlərə yol açır. Ekspertlər bildirirlər ki, yollarda monitorinqlər aparılmalı, real şəraitə uyğun dəyişikliklər edilməlidir.

SƏHİFƏ 14-də



## ƏKS QÜTBLƏRİN UYUMLU SEVGİSİ

Günay: "Almanların soyuq olduqları deyilsə də, mən yoldaşımda bunu görməmişəm. Hətta təkcə mən yox, digər insanlar da bunu deyirlər. Harasa getdikdə insanlar yoldaşımı ilk baxışdan sevirlər".

SƏHİFƏ 8-9-da

## CƏBRAYIL ŞƏHƏRİNDƏ İLK YAŞAYIŞ KOMPLEKSİ İSTİFADƏYƏ VERİLİB

# "DAYANDIRIN BU TƏHLÜKƏLİ OYUNLARI!"



Prezident İlham Əliyev: "Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz".

**"BİZİM İRADƏMİZƏ TƏSİR EDƏ BİLMƏZ"**

"Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz".

**"ÖZLƏRİ ÖZLƏRİNƏ MƏKTUB YAZIRLAR"**

"O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar..."

SƏHİFƏ 2-də

## Litvanın xarici işlər naziri nədən "küsüb"?

# KOLLEKTİV QƏRBİN GÜLÜNC HƏMLƏLƏRİ

Litva kimi ölkələr qlobal siyasətdə heç bir əlahiddə missiya daşıyıcısı deyillər. İşləri-gücləri Parisin və Brüsselin tezisləri və təlimatlarından irəli gələn çıxışlar etmək, uzağı görməyən və ikitərəfli münasibətləri zərbə altına qoyan bəyanatlar verməkdən ibarətdir.

SƏHİFƏ 4-də

Landsbergis bilir ki, debatlarda Azərbaycan təmsilçiləri yoxdurlar və ona narahat suallar verən olmayacaq. Öhdəlikdən danışılırsa, AŞPA-nın özünün azərbaycanlı parlamentarilərin hüquqlarını pozmasını necə izah edə bilər?





## PƏNAHƏLİ XANIN İMARƏTİ

Mehdiqulu xanın qəbirüstü türbəsi, həmçinin xanın qızı Xurşidbanu Natəvanın məzarı İmarət Kompleksində yerləşib. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər buradakı qəbiristanlıqda dəfn ediliblər.

SƏHİFƏ 11-də



## MƏKTƏB AİLƏ İLƏ BİRLƏŞMƏLİDİR

Yeni tədris ilində "Məktəbdə"nin ilk qonağı Bakı Slavyan Universitetinin prorektoru, Əməkdar müəllim Ənvər Abbasov olub. 50 ildən çox pedaqoji təcrübəyə malik qonaq şagirdlərin suallarını cavablandırıb.

SƏHİFƏ 6-da



## "QARABAĞ" NİYƏ TƏNƏZZÜLDƏDİR?

Azərbaycan çempionu Avrokuboklarda ardıcıl dördüncü oyunda məğlub olub. Bu ana olan nəticələrə əsasən, xalı olmayan Ağdam təmsilçisi 36 komanda arasında 34-cü yeri tutur. Son illərdə "Qarabağ"ın belə uzun uğursuz seriyası olmayıb.

SƏHİFƏ 16-da



**Azərbaycanda piroliz yağı istehsal ediləcək**

SƏHİFƏ 15-də



**"Təhsildə Yeni Çağırışlar"**

SƏHİFƏ 15-də



**Uşaqlar niyə kütləvi şəkildə xəstələnir?**

SƏHİFƏ 10-da



**Abortlarla bağlı dəhşət saçan statistika**

SƏHİFƏ 12-də



**"Mən hara, rayon hara?"**

SƏHİFƏ 13-də

# "DAYANDIRIN BU TƏHLÜKƏLİ OYUNLARI!"



**Prezident İlham Əliyev: "Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz".**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər. Yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarları təqdim edilib. Dövlət başçısı tədbirdə çıxış edib.

### AZAD EDİLƏN İLK ŞƏHƏR

Prezident çıxışında bildirib ki, onun Sərəncamı ilə 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü elan edilib: "Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi. Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur".

Prezident bildirib ki, Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərib, eyni zamanda, Ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəldib: "Cəbrayıldan bir neçə gün sonra uğurlu Hadrut əməliyyatı keçirilmişdir. O da çox böyük peşəkarlığa malik olan əməliyyatdır. Düşmənin orada çox möhkəm istehkam mövqeləri var idi, özü də bütün təpələrdə onlar yerləşmişdi, Cəbrayılda da, həmçinin. Şəhəri azad etmək üçün bizim qəhrəman övladlarımız bir neçə müdafiə xəttini yarmalı idi və bunu edə bilmişdilər".

## BİRİNCİ YENİ YAŞAYIŞ MƏHƏLLƏSİ

Prezident İlham Əliyev bildirib ki, Cəbrayılın inkişafı ilə bağlı dərhal bütün müvafiq tapşırıqlar verilib: "Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir".



## ÖZLƏRİ ÖZLƏRİNƏ MƏKTUB YAZIRLAR

Dövlət başçısı ərazi bütövlüyünün bərpası məsələsinə münasibətdə Azərbaycana göstərilən ikili standartlara da münasibət bildirib: "Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz - Cəbrayılın sakinləri. Başqa yerlərdə də bütün Azərbaycan kəndlərini bax, bu günə qoyublar. Məscidlərimizi dağıdıblar, heyvanxana düzəldiblər, inək-donuz saxlayıblar. Qərbdə bir adam deyib ki, Azərbaycanın mədəni irsi talan edilir, dağıdılır, təhqir edilir? Yox. Ancaq bizi nədə ittiham edirlər? Guya biz hansısa tarixi irsi məhv edirik. Tamamilə əsassızdır".





### ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏR ÜÇÜN YAS GÜNÜ

Prezident deyib ki, bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür: "Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir".

### "NƏ QƏDƏR ÇALIŞSALAR DA, HEÇ NƏ ALINMAYACAQ"

Dövlət başçısı deyib ki, bu dağıntılar təbii ki, bir müddətdən sonra sökülərək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır. Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil: "Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq".

Sonra açarların sakinlərə təqdim edilməsi mərasimi olub. Qeyd edək ki, Prezident İlham Əliyev Zəngilan və Cəbrayıl rayonlarına səfər çərçivəsində bir sıra açılışlarda və təməlqoyma mərasimlərində də iştirak edib.

QƏRBİ AZƏRBAYCANLILAR ÖZ DƏDƏ-BABA TORPAQLARINA QAYIDACAQLAR

# YENİ HƏDƏFLƏRƏ DOĞRU

Qərbi Azərbaycana qayıdış məsələsi Prezident İlham Əliyev tərəfindən növbəti dəfə qaldırıldı. Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, əslən göyçəli olan Aşıq Ələsgərin abidəsinin açılışında Prezident xalqımızın XX əsrdə üç deportasiya dalğasına məruz qaldığını bildirdi.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Tarixi günlər yaşayırıq. Artıq hansısa görüşlərdə, tədbirlərdə ermənilərin torpaqlarımızı işğal etməsi, sərhədlərimizin bütövlüyünün, suverenliyimizin pozulması kimi keçmişdə qalmış məsələləri müzakirə etmirik. İndi qalib xalq olaraq düşüncəmiz, davranışımız kimi hədəflərimiz, fikirlərimiz də dəyişib. Bir zamanlar bizə yuxu kimi gələn hədəflər indi sanki əl uzatsaq götürə biləcəyimiz qədər yaxın görünür. Yuxarı Qarabağ, Şərqi Zəngəzur artıq yurd yerlərindən didərgin salınmış övladlarına qovuşur, bu torpaqlarda yeni həyat canlanır. Artıq hədəf Qərbi Azərbaycandır. İndiki Ermənistan dövlətinin yaradıldığı tarixi torpaqlarımız.

### O TORPAQLAR UNUDULMAYIB

Təbii ki, Azərbaycan yeni hədəfinə doğru hansısa müharibə və güc tətbiqi ilə irəliləməyəcək. Bunun belə olmayacağını Azərbaycanın ali rəhbərliyi dəfələrlə bəyan edib.

Yeri gəlmişkən, həftənin əvvəlində Qərbi Azərbaycana qayıdış məsələsi Prezident İlham Əliyev tərəfindən növbəti dəfə qaldırıldı.

Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı, əslən göyçəli olan Aşıq Ələsgərin abidəsinin açılışında iştirak edən Prezident xalqımızın XX əsrdə üç deportasiya dalğasına məruz qaldığını bildirdi: "1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar".



## "BÖYÜK QAYIDIŞ PROQRAMININ İCRASINI GÖZLƏYİRLƏR"

Təbii ki, ölkənin ali rəhbərliyinin müəyyənləşdirdiyi hədəflərə çatmaqda ən başlıca amil Azərbaycan xalqının əyilməz ruhu, liderinə olan inamı və öz tarixi vətənlərinə bağlılığıdır. Dövlət başçısının da bildirdiyi kimi, biz bu ruhu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük: "O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda,



Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir".

### AZƏRBAYCAN ÖZ ŞƏRTLƏRİNİ DİKTƏ EDİR

Bəli, Azərbaycan qalib dövlət olaraq öz şərtlərini və tələblərini diktə edir. Bu tələblər əslində heç bir zorakılığa, güc tətbiqinə əsaslanmır. Biz hüquqları pozulmuş, soyqırımına, deportasiyaya məruz qalmış yüz minlərlə soydaşlarımızın qayıdış hüququnun tanınmasını, onların təhlükəsizlik şəraitində dədə-baba yurdlarında yaşamının təmin olunmasını istəyirik.

Qarşı tərəfin bütün təkidlərinə, etirazlarına, hətta siyasi oyunlarına baxmayaraq Qərbi Azərbaycana qayıdış hüququnu heç kim, hətta Bakıya qarşı ikili standartların beşiyi olmuş beynəlxalq təşkilatlar belə inkar edə bilmirlər. Çünki tələbimiz ədalətlidir, haqlıdır. İrəvanı və onun havadarlarını da ən çox qorxuya salan məqam məhz budur. Azərbaycanın hər zaman olduğu kimi, bu məsələdə də güclü tərəf olması. Hansı ki, vaxtilə Yuxarı Qarabağ və Şərqi Zəngəzurun işğalına son qoyarkən beynəlxalq aləm bu reallıqla barışmaq və Bakının yaratdığı geosiyasi durumu qəbul etmək məcburiyyətində qaldı. Əslində belə də olmalı idi.

## "BİZ HƏR DƏFƏ QARŞIYA HƏDƏFLƏR QOYMALIYIQ"

Yuxarıda qeyd etdiyimiz kimi, artıq yeni hədəfimiz bəllidir - Qərbi Azərbaycana qayıdış. Dövlət başçısının da vurğuladığı kimi, biz hər dəfə qarşıya hədəflər qoymalıyıq: "Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək".

Bəli, yeni hədəflərə doğru inamla və qətiyyətlə irəliləmək, məqsədlərimizə nail olmaq üçün güclü olmalıyıq, bir olmalıyıq, eyni amal uğrunda birləşməyi bacarmalıyıq. Necə ki, 44 günlük Vətən müharibəsində bacardıq. Tarixin xalqımız və dövlətimiz qarşısında yaratdığı bu imkandan maksimum yararlanmaq, onu dəyərləndirmək isə təbii ki, öz əlimizdədir. Prezidentin də qeyd etdiyi kimi, Qərbi Azərbaycana qayıdış hədəfimizin uzaq yaxud yaxın olması bizdən, hər birimizdən asılıdır.

# KOLLEKTİV QƏRBİN GÜLÜNC HƏMLƏLƏRİ



AŞPA kimi qurumların ifa etdikləri təsirsiz “geosiyasi dəyənək” rolu bu gün artıq heç kim üçün sirr deyil. Tək Azərbaycana deyil, Avropa İttifaqına üzvlüyə namizəd olan qonşu Gürcüstana qarşı son aylar ərzində güclənən hücumlar da bunun növbəti sübutudur.



RÜSTƏM QARAXANLI

Başa çatan həftə Avropa Şurası Parlament Assambleyası (AŞPA) yenidən sevimli məşğuliyyətinə müraciət etdi: avroparlamentarilər özlərinin müzakirələrdən kənarlaşdırdıqları azərbaycanlı həmkarları olmadan Azərbaycanda “insan hüquqları” ətrafında debatlara baş vurdular.

**HAZIR, KÖHNƏLMİŞ KONSPEKTLƏR**

Kollektiv Qərbin hər hansı siyasi institutu, məsələn, AŞPA və ya Avroparlamentdə bu kimi müzakirələrə diqqət yetirdikdə belə təəssürat yaranır ki, sanki Azərbaycanı tənqid edən Avropa siyasətçilərinin əllərinin altında hazır, ancaq köhnəlmiş konspektlər var. Avropalı parlamentarilərin çıxışları zamanı buraxdıqları yanlışlıqlar, qeyri-dəqiqliklər, qərəz dolu ifadələr belə düşünməyə tam əsas verir.

Aktuallığını itirmiş tezislər əsasında qurulan nitqlər çıxışçıların əksəriyyətinin Ermənistanla Azərbaycan arasındakı münasibətlərin nəinki tarixindən, hətta hazırkı reallıqdan belə yetərincə məlumatlı olmadıqlarının göstəricisidir.

Budəfəki müzakirələr də ənənələrdən geri qalmayaraq “Dağlıq Qarabağda həyata keçirilən etnik təmizləmələr”ə həsr olundu. Bu müzakirələr də avropalı deputatların - təbii ki, hamısı deyil - siyasi cəhətdən necə hazırlıqsız, birtərəfli və naşı olduqlarının, hansı səviyyədə təlimatlandırıldıqlarının və istisna deyil ki, obyektivlikdən kənarda olan çıxışlarını müəyyən şirnikləndirici faktorların təsiri və məcburiyyətindən etdiklərinin göstəricisidir.



Qabrielyus Landsbergis

## TƏSİRSİZ “GEOSİYASİ DƏYƏNƏK”

Aydındır ki, onları öz ölkələrinin qanunverici orqanlarına seçən seçicilərin də Cənubi Qafqaz bölgəsində baş verənlərdən səhih məlumatları yoxdur. Başqa sözlə, bu şəxslər parlamentlərə seçicilərinin Azərbaycana qərəzli münasibəti, yaxud Ermənistana sevgisindən dolayı seçilmirlər və bu amil onlara beynəlxalq təşkilatlarda məsuliyyətsiz çıxışlar etməyə bir növ geniş imkan yaradır. AŞPA kimi qurumların ifa etdikləri təsirsiz “geosiyasi dəyənək” rolu bu gün artıq heç kim üçün sirr deyil. Tək Azərbaycana deyil, Avropa İttifaqına üzvlüyə namizəd olan qonşu Gürcüstana qarşı son aylar ərzində güclənən hücumlar da bunun növbəti sübutudur.

## İNTERNET ƏSRİNDƏ “ETNİK TƏMİZLƏMƏ”

AŞPA-da Azərbaycanın ünvanına söylənən hədyanların əsas hədəfi elə söyləməklə kifayətlənməkdən ibarətdir. Robotlaşmış avroparlamentarilər konveyer üsulu ilə onlara verilmiş təlimatlar əsasında çıxışlar edirlər. Ancaq dediklərinin mahiyyəti və gerçəklik barədə tam məlumatsızdırlar. Məsələn, XXI yüzillikdə, internet əsrində “etnik təmizləmə” haqqında iddialar hansı məsuliyyətlə irəli sürülür? Axı media var, Azərbaycanda və Ermənistanda akkreditə olunmuş diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatların ofisləri var ki, qeydiyyatlar aparırlar. Ermənilərin Qarabağdan könüllü qaçıb-getdikləri zaman hansı belə instansiya “etnik təmizləmə” halını qeydə alıb? İndi XX əsrin əvvəli deyil ki, “1,5 milyon erməninin Osmanlı imperiyasında soyqırımına məruz qalması” barədə yalanlar bəstələyəsiniz! 30 il əvvəl azərbaycanlıları qətl edən, tarixi yurdundan zoraki yollarla qovan, səkkiz şəhəri və yüzlərlə kəndi talan edib yer üzündən silən, məzarlarımızı, tarixi abidələrimizi və ibadət yerlərimizi dağıdıb təhqir edən şəxslərin əməllərinə görə qorxub Ermənistana qaçmaq nə vaxtdan etnik təmizləmə olub? Azərbaycan pasportunu alıb vətəndaş olmaları üçün onlara yaradılmış imkandan istifadə etməkdən boyun qaçıranların Qarabağı könüllü tərk etmələri etnik təmizləmədirmi? AŞPA tribunasından bu məsuliyyətsiz çıxışları edən şəxslər Azərbaycan polisinin “etnik təmizləmə”yə məruz qalan erməniləri qoruduqlarına, qalmaları üçün dilə tutmalarına, tibb işçilərinin yol boyu onları müşayiət etmələrinə dair videogörüntüləri izləyiblərmi?

## LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ NƏDƏN “KÜSÜB”?

Budəfəki çıxışçıların arasında Litvanın XİN rəhbəri xüsusilə diqqəti cəlb etdi. Qabrielyus Landsbergis rəsmi Bakının sentyabrın 1-də keçirilən parlament seçkilərini müşahidə etmək üçün AŞPA-dan heç kimi dəvət etmədiyindən incik düşüb. Cənab Landsbergis hətta Azərbaycandan “tələb” də edir: Avropa Şurasına daxil olarkən üzərinə götürdüyü öhdəliklərə riayət etmək.

Litva kimi ölkələr qlobal siyasətdə heç bir əlahiddə missiya daşıyıcısı deyillər. İşləri-gücləri Parisin və Brüsselin tezisləri və təlimatlarından irəli gələn çıxışlar etmək, uzağı görməyən və ikitərəfli münasibətləri zərbə altına qoyan bəyanatlar verməkdən ibarətdir. Landsbergis bilir ki, debatlarda Azərbaycan təmsilçiləri iştirak etmirlər və ona narahat suallar verən olmayacaq. Məsələn, öhdəlikdən danışılırsa, AŞPA-nın özünün azərbaycanlı parlamentarilərin hüquqlarını pozmasını necə izah edə bilər? Azərbaycana qarşı məlum qərəzli mövqedə olan bir təşkilatın nümayəndələri hansı üzlə və məqsədlə seçkiləri müşahidə etməlidirlər? Çoxsaylı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünü qəbul edən, hətta Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyən AŞPA-nın rəsmiləri hansı haqla birtərəfli mövqe tutaraq İrəvanı müdafiə edirlər? Bu suallara Litva XİN-nin rəhbəri çətin ki, cavab tapsın. Çünki birincisi, özü də təlimatlar əsasında çıxış edir, ikincisi isə təmsil etdiyi dövlətin nəyəsə təsir imkanları sıfıra bərabərdir.

Belə görünür ki, Qərb tək AŞPA deyil, digər beynəlxalq platformalar və hökumətlər, habelə müxtəlif forumlar və tədbirlər vasitəsilə Azərbaycana “təsir etməy”i arsenalında qalan yeganə çıxış yolu hesab edir. AŞPA-dakı “müzakirələr”lə paralel Varşavada baş tutan təhlükəsizlik forumundakı aşkar ermənipərəst ab-hava və Ararat Mirzoyanın “benefis”i, ABŞ konqresmenlərinin həbsdə olan cinayətkar separatçı xuntanın liderlərinin “azad olunmaları”nı Azərbaycandan “tələb etmələri” kimi lüzumsuz aksiyalar sadəcə gülünc mövzusudur. Biz Xankəndidə dalğalanan üçrəngli bayrağımıza baxıb, belə məlumatları oxuyub gülürük...

# YAXIN ŞƏRQİN SÖNMƏYƏN ATƏŞİ

İranın məhz proksi qüvvələri vasitəsi ilə İsraili dayandırmağa çalışdığı sirr deyil. Bu sırada ən böyük ümidləri isə təbii ki, "Hizbullah" idi. Lakin qruplaşma son aylar ciddi uğursuzluqlar yaşayıb.





AZƏR NURİYEV

"Hizbullah" lideri Həsən Nəsrullahın öldürülməsi ilə İranla İsrail arasında gərginlik növbəti mərhələyə daxil olub. İran İsrailə yeni raket zərbələri endirib. İsrailin Baş naziri Benyamin Netanyahu İranın İsrailə raket hücumunu "böyük səhv" adlandırıb və bunun Tehrana baha başa gələcəyini bildirib. İranın Yaxın və Orta Şərqdə ən güclü proksi qüvvəsi kimi bilinən qruplaşmanın liderinin öldürülməsindən sonra münaqişənin geniş coğrafiyaya yayılacağı riskləri günbəgün artır.

### İSRAİLİN HÜCUMUNA REAKSİYALAR

İsrail və "Hizbullah", o cümlədən İran arasında gərginliyin artması fonunda ABŞ Yaxın Şərqə əlavə hava qüvvələri göndərmək qərarına gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Livandan sonra İsrailin növbəti hədəfi Türkiyə olacaq. İran Prezidenti Məsud Pezeşkian isə sələfləri kimi "İsrail yox olmalıdır" deməyib. Əvəzində "hamıya sülh istəyirik və heç bir ölkə ilə müharibə istəmirik" söyləyib. Lakin reallıq odur ki, hücumlar səngimir. İran hücumlarını özünümüdafiə hüququ ilə əsaslandırır. İsrail ABŞ-nin yalnız onu dəstəkləməsinə deyil, eyni zamanda, birbaşa toqquşmaların tərəfi olmasına çalışır.

İstənilən halda, vəziyyət çox təhlükəlidir. Yaxın gələcəkdə baş verə biləcək hadisələrlə bağlı iki ssenari mövcuddur. Birincisi odur ki, İranın raket hücumu nəticə verəcək və gərginliyin miqyası genişlənməyəcək. Başqa bir ssenariyə görə isə bir tərəfdə rəsmi Tehran, digər tərəfdə isə İsrail və ABŞ birbaşa müharibəyə girəcəklər.

### TEHRANI DÜŞÜNDÜRƏN SUAL

İndi İsrailin İranın raket hücumuna cavabının necə olacağı hər kəsi düşündürür. Medianın məlumatına görə, bununla bağlı iki hədəf ola bilər.

Birincisi, İsrail İranın nüvə obyektlərinə zərbələr endirəcək, ikincisi, daha real olanı isə, neft bazalarının vurulmasıdır.

Artıq birinci ssenari ilə bağlı İsrailin ən böyük müttəfiqi ABŞ-nin rəsmi mövqeyi bəllidir. ABŞ Prezidenti Cozef Bayden İsrailin İrandakı nüvə obyektlərinə zərbə endirməsini məqsədəuyğun hesab etmədiyini bildirib. Belə ki, jurnalistlərin müvafiq sualını cavablandıran Bayden qısa olaraq "yox" deyib.

İranın xarici işlər naziri Abbas Əraqçi də İsrailin ölkəsinin ərazisindəki nüvə obyektlərinə hücum etməyə cəsarət etməyəcəyinə əminliyini ifadə edib. Bununla belə, Tehran ciddi şəkildə İsrailin cavab zərbələrinə hazırlaşır.



Həsən Nəsrullah

## İSRAİLİN HƏDƏFİ

İki ölkə arasında gərginliyin əsas qaynaqlarından olan Livana hücum isə tam sürətlə davam edir. İsrail ordusu Livana hücumda məqsədinin sərhəd boyunca "Hizbullah" hədəflərini dağıtmaq olduğunu bildirib. Azı 10 min hərbçidən ibarət ordu diviziyası əməliyyata cəlb olunub. İsrail ötən ay deyirdi ki, müharibədə əsas hədəfi "Hizbullah"ın hücumlarının İsrailin şimalından didərgin saldığı 60 minədək sakinin qayıdışıdır. Bəhreyndə yerləşən "Le Beck International" konsultasiya şirkətinin kəşfiyyat bölməsinin rəhbəri Maykl Horovits deyir ki, İsrail sərhəd boyunca "Hizbullah"ın infrastrukturunu, o cümlədən tunelləri, müşahidə postlarını dağıtmağa çalışır. "Bu mənada "məhdud" deyir, çünki məqsəd "Hizbullah"ı məğlub etmək deyil, bundan ötrü Livanın əksər hissəsinin daha geniş işğalı tələb olunardı", - o söyləyib.

## DİŞSİZ LİVAN ORDUSU

İranın məhz proksi qüvvələri vasitəsi ilə İsraili dayandırmağa çalışdığı sirr deyil. Bu sırada ən böyük ümidləri isə "Hizbullah" idi. Lakin qruplaşma son aylar ciddi uğursuzluqlar yaşayıb. İsrail qruplaşma rəhbərliyinin böyük hissəsini qətlə yetirib, hərbi arsenalının əhəmiyyətli hissəsini neytrallaşdırıb, kommunikasiyalarını sıradan çıxarıb. Buna baxmayaraq, ekspertlər deyirlər ki, bu qrupun üstündən xətt çəkmək olmaz, böyük canlı qüvvəsi və hərbi arsenalı var. "İsrail düşünür ki, "Hizbullah" xaos vəziyyətindədir, komandanlıq və nəzarət sistemində boşluq var. İsrail tərəfdən ilkin irəliləmə və uğurlar gözləyə bilərik", - Almaniya Beynəlxalq və Təhlükəsizlik Məsələləri İnstitutunun əməkdaşı Həmidrza Əzizi deyib. Ancaq o, "Hizbullah"ın quru döyüşlərində böyük üstünlüyə malik olduğunu söyləyir. Çünki qruplaşma partizan müharibəsində təcrübəlidir. 1980-ci illərdə qurulan "Hizbullah" Livanda dominant hərbi gücə çevrilib, ölkənin ənənəvi ordusunu kölgədə qoyub. Əzizinin sözlərinə görə, Livan ordusu 40 min döyüşçüsü olan "Hizbullah" ilə müqayisədə çox zəifdir. Buna görə də İsrail qüvvələri ilə quru döyüşlərində Livan ordusunun iştirakı real görünmür.

### NƏSRULLAHIN VARİSİ QASIM SÜLEYMANİNİN QUDASI OLA BİLƏR

Bu arada, İsrailin qətlə yetirdiyi Həsən Nəsrullahın mümkün varisi Haşim Safieddindir. O, Nəsrullahın əmisi oğludur, Qum şəhərində dini təhsil alaraq İranla sıx əlaqələr saxlayır. Onun oğlu 2020-ci ildə İraqda ABŞ zərbəsi nəticəsində həlak olmuş İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) xarici əməliyyatlar komandanı general Qasım Süleymaninin qızı ilə evlidir. Haşim Safieddin indiyə qədər heç bir nailiyyət qazanmayıb. Hətta o, lider olsa belə, özünün nə qədər yaşayacağı məlum deyil.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# MƏKTƏB AİLƏ İLƏ BİRLƏŞMƏLİDİR

Yeni tədris ilində "Məktəbdə"nin ilk qonağı Bakı Slavyan Universitetinin prorektoru, Əməkdar müəllim Ənvər Abbasov olub. 50 ildən çox pedaqoji təcrübəyə malik, orta məktəbdən tutmuş ali məktəb auditoriyasına qədər pedaqoji işi həyatının mənasına çevirən qonaq şagirdlərin suallarını cavablandırıb.





Fotolar: Rüfət Mikayılov/Global Media Group

HAZIRLADI



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

5 Oktyabr - Beynəlxalq Müəllimlər Günüdür. "Məktəbdə" layihəsi yeni tədris ilində ilk qonağını - 50 ildən çox pedaqoji təcrübəyə malik, Bakı Slavyan Universitetinin prorektoru, Əməkdar müəllim Ənvər Abbasovu məktəblilərlə görüşdürdü.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Kaspi" qəzetinin informasiya dəstəyi ilə reallaşdırdığı layihə paytaxtın 44 nömrəli tam orta məktəbində baş tutdu.

### YENİ MƏKTƏBİN NÜMAYƏNDƏLƏRİ

"Müəllim olmaq çox çətindir. Mən orta məktəbdə Ana dili və ədəbiyyat müəllimi işləmişəm. Kimya müəllimi də ola bilərdim. Amma hansısa ixtisas sahibi olmaq üçün insanın daxilində bir tərpəniş olmalıdır ki, səni ona sövq eləsin. Bu sevginin yaranmasında müəllimlərimin böyük zəhməti olub. Müəllim kimi auditoriyada uşaqlarla təmasda olmaqdan gözəl heç nə yoxdur", - deyə qonaq görüşünə müəllimlik sənətinə olan sevgisindən başladı: "Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Mən müəllimlik fəaliyyətimdə təhsil sahəsində sistemli araşdırmalar aparmağa çalışmışam". Pedaqoq məktəbdə görüşün ona nostalji hisslər yaşatdığını dedi: "Bu görüş məni keçmişə apardı. Sizə baxıb "mən də nə vaxtsa belə olmuşam", - deyə düşünürəm. Amma mən sizin kimi gözəl məktəbdə oxumamışam. Kənd məktəbində, kiçik, darısqal sinif otağında təhsil almışam. Sonra 10-11-ci sinifləri başqa məktəbdə davam etdirmişəm. Amma siz yeni dövrdə, müasir məktəblərdə oxuyursunuz. Siz bir xəzinəsiniz. Amma sizə həsəd aparmıram. Sizə xoşbəxtlik və sağlamlıq arzulayıram!"

Pedaqoq bildirdi ki, ən vacib bilik və bacarıqların əsası orta ümumtəhsil məktəbində qoyulur. Kim bu biliklərə yiyələnməsə, gələcək həyatında çətinlik çəkir: "Siz indi ömrün ən vacib mərhələsində iştirak edirsiniz. Azərbaycanda müstəqil təhsil sistemi 90-cı illərin sonundan yaranmağa başlayıb. Bu gün Azərbaycanda təhsil islahatları gedir. Bu islahatlar qurub-yaratmağa, modernləşməyə hesablanıb. Ölkəmizdə yeni məktəb qurulur. Siz əslində o yeni məktəbin nümayəndələrisiniz. İşğalda olan torpaqlarımız azad olunub. İndi o torpaqlarda quruculuq işləri gedir. Bu işlər bizim xoşbəxtliyimizdir. Siz bu zamanın uşaqlarısınız. Bu gün Azərbaycan dünyanın hər yerində tanınır. Bununla fəxarət hissi keçiririk".

> *"Hansısa ixtisas sahibi olmaq üçün insanın daxilində bir tərpəniş olmalıdır ki, səni ona sövq eləsin. Bu sevginin yaranmasında müəllimlərimin böyük zəhməti olub. Müəllim kimi auditoriyada uşaqlarla təmasda olmaqdan gözəl heç nə yoxdur."*

### "İSLAHATLAR DA LABÜDDÜR, QÜSURLARI DA"

Məktəblilərin qonağa ünvanlandığı suallar görüşün daha canlı olmasına yol açdı. Şagirdlərdən birinin "Ölkəmizdə Beynəlxalq Müəllimlər Günü qeyd edilir. Əsl müəllim necə olmalıdır?" sualına qonağın cavabı çox maraqlı oldu. O qeyd etdi ki, insan təbiət kimi olmalıdır: yağış yağır, ildırım, şimşək çaxır - tez keçir: "Müəllimin də hirsi elə keçməlidir. Müəllim şagirdi yetişdirir. O çalışmalıdır ki, bütün situasiyalara hazır olsun. Bu proses stressli ola bilər. Müəllimin daxili bütövlüyü olmalıdır ki, bu cür təpkilərə dözə bilsin".

Məktəblilərdən biri "Yeni təhsil islahatlarına toxundunuz. Amma hər müsbətdə bir mənfi olur. İslahatlarda sizi qane etməyən məqamlar hansılardır?" - deyə sual ünvanladı. Ə.Abbasov "aparılan bütün islahatlar yaxşılığa doğrudur. Bu prosesdə hansısa səhvə yol verərik, hansısa vasitəni hazırlayanda səriştəsiz ola bilərik, amma bu, bizi işimizdən çəkindirməməlidir. İslahat dəyişiklik deməkdir. Bu, cəmiyyəti gələcəyə hazırlayır. Xüsusən təhsil islahatlarını dayandırmaq olmaz. Biz özümüzü həmişə gələcəyə hazırlamalıyıq. İslahatlar da labüddür, qüsurları da. Amma bu qüsurları aradan qaldırmalıyıq".



### VALİDEYN İCMASININ VACİBLİYİ

"Gənclərin baxışlarından, həyat tərzlərindən nə qədər razısınız?" - deyə auditoriyadan ünvanlanan suala pedaqoq "mən gəncləri çox sevirəm" - deyə cavab verdi: "Bəzən mənə deyirlər ki, çox humanistsən. Biz uşaqlarımızla yumşaq danışmalıyıq, onların əsəbləri üzərində addımlamamalıyıq. Biz uşaqları sevməliyik. Auditoriyaya hansı məhəbbəti versən, qarşılığında onu da alacaqsan. Azərbaycan təhsili də humanistdir. Hansısa müəllim ola bilər sərt davransın, amma onu da həlim qəbul edin".

### "UŞAQLARDA İNTERNET MƏDƏNİYYƏTİNİ FORMALAŞDIRMALIYIQ"

"Müasir dövr internet, rəqəmsal texnologiyalar, sosial şəbəkələr dövrüdür. Siz sosiallaşmanın düzgün yolunu nədə görürsünüz?" sualına qonağın cavabı tövsiyə kimi səsləndi: "Sosiallaşma vacibdir. Biz sosial şəbəkələri bağlaya bilməyəcəyik, internet mədəniyyətini formalaşdırmalıyıq. Biz uşağı nədən qoruyuruqsa, ona doğru gedir. Uşaqlarımıza özləri haqqında qərar verməyi öyrətməliyik. Məktəb bu işdə böyük missiya daşıyır. Məktəb bu işdə ailə ilə birləşməlidir. Biz məktəb-şagird-valideyn üçbucağını düzgün qura bilməmişik. Məktəb bütün yenilikləri valideynə deməlidir. Qoy o, bunu kənardan yox, məktəbin məsul şəxslərindən eşitsin. Bu valideyn icmasının formalaşmasına gətirib çıxaracaq. Valideynlər məktəbin fəal iştirakçısına çevrilməli, məktəbin quruculuğunda iştirak etməlidirlər. Xarici ölkələrdə bu təcrübə geniş yayılıb".

"Son vaxtlar müəllim nüfuzunu artırmaq haqqında çox danışılır. Müəllim nüfuzunu yüksəltmək üçün hansı addımlar atılmalıdır?" sualına da Ə.Abbasovun cavabl maraqlı oldu: "Müəllimlərin hazırlığı yüksək olmalıdır. İndiki şagirdlər 20-30 il əvvəlin uşaqları deyil. Onlar rəqəmsal dövrün uşaqlarıdır. İndi uşaqlar tədqiqatyönümlüdür. Onlar sinfə müəllimin mövzusuna hazır gəlirlər. Ona görə müəllim onlara bilgi vermək üçün ayrı bir texnologiya seçməlidir".



# MƏNZİL ALMAQ İSTƏYƏNLƏRİN YENİ ÜMİDİ

Sosial ipoteka faizlərinin aşağı salınması ilə bağlı gözləntilər var. Rəsmilər bu istiqamətdə müsbətə doğru siqnallar versələr də, ekspertlərin məsələ ilə bağlı fikirləri haçalanır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda ev sahibi olmaq istəyənlərin ən yaralı yeri ipoteka kreditləridir. Çünki mənzillərin artan qiymətləri ilə insanlar nəğd şəkildə pul ödəyib ev sahibi ola bilmirlər. İpoteka isə onlara bu imkanı yaradır. Son illərdə ölkədə mənzil satışlarının böyük bir hissəsi ipoteka kreditləşməsi ilə reallaşdırılır. Xüsusilə də sosial ipotekaya maraq böyükdür. Əsas gözləntilərdən biri də sosial ipoteka kreditlərinin faizlərinin aşağı salınması ilə bağlıdır. Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev də bu günlərdə Gənc Ailə Forumunda çıxışı zamanı deyib ki, sosial ipoteka kreditlərinin faizlərinin aşağı salınması arzudur. Amma bunun reallaşması üçün gərək banklar da tərəfdaş kimi maraqlı olsunlar. "Ailələr üçün güzəştli kredit şərtlərinin daha yumşaq olmasına çalışmalıyıq", – deyə nazir müavini bildirib.

Bəs görəsən, sosial ipoteka kreditlərində faizlərin azaldılması nə dərəcədə realdır? Bu reallşarsa, əmlak bazarına necə təsir edə bilər?

### 2025-Cİ İLİ GÖZLƏMƏLİYİK

Əmlak eksperti Mülkədar Rüstəmov düşünür ki, sosial ipoteka faizlərinin aşağı salınması real ola bilər: "Sadəcə, dövlət güzəştə getməlidir. Banklara tövsiyə xarakterli göstəriş verilməlidir ki, bəzi kateqoriyalara daxil olan insanlara, imtiyazlı şəxslərə güzəşt tətbiq edilsin. Necə ki, dörd faizlik güzəşt xüsusi şəxslərə tətbiq edilir, bu şəkildə digər insanlara da güzəşt edilə bilər. Gələcəkdə belə bir halın nəzərdə tutulması mümkündür. Amma ən yaxşı halda yanvar ayını gözləməliyik. Çünki ilin əvvəlində İpoteka Fondu yeni limitləri müəyyənləşdirir. Nəzərə almalıyıq ki, artıq dörd ildir limit dəyişməz qalır".



**Hazırda əmlak bazarında hər 10 mənzildən 7- si ipoteka yolu ilə satılır**

**Son dörd ildə əmlak bazarında mənzillərin qiyməti 40% artıb**

### ƏMLAK BAZARINA MÜSBƏT TƏSİR EDƏCƏK

M.Rüstəmov bildirdi ki, limitlərin artırılması vacibdir. Çünki əmlak bazarında vəziyyət dörd il əvvəlkindən çox fərqlidir: "Son dörd ildə əmlak bazarında mənzillərin qiyməti 40 faizə qədər yüksəlib. 100 minlik limitlə insanlar mənzil sahibi ola bilmirlər. Ən minimum halda limit 200 min olmalıdır. Yalnız bu halda güzəştli ipotekaya düşən şəxslər bundan istifadə edə biləcək".

M.Rüstəmovun sözlərinə görə, əgər faizlər aşağı salınarsa, limit artırılarsa, bu, əmlak bazarına çox müsbət təsir edəcək. Mənzil bazarında canlanma başlayacaq: "Bu il mənzil bazarında vəziyyət çox durğun oldu. Nəzərə alaq ki, əmlak bazarındakı durğunluq bütün sahələrə təsirini göstərir. Ümidvarıq ki, 2025-ci ilin yanvar ayında İpoteka Fondu limitləri artırmaqla bağlı dəyişikliyə gedəcək. Çünki hazırda əmlak bazarında hər 10 mənzildən yeddisi ipoteka yolu ilə satılır".

## "DAHA AŞAĞI FAİZ MÜMKÜNSÜZDÜR"

İqtisadçı Elçin Rəşidov isə əmlak eksperti kimi düşünmür. O hesab edir ki, sosial ipoteka faizləri kifayət qədər aşağıdır: "Mövcud faiz hətta inflyasiya faizlərindən də aşağıdır. Oradan gələcək alternativ dəyər də azdır. Daha aşağı təklif irəli sürmək mümkünsüzdür. İqtisadi cəhətdən də alınmır. Əmlak bazarında yaradacağı təsirlər də destruktivdir".

E.Rəşidovun fikrincə, faizlər aşağı salınarsa, mənzil bazarında yaranan aktivlik ilə qiymətlər daha da yüksələ bilər: "Sosial ipotekaya müəyyən qrup insanlar aid olur. Faizlər aşağı salınsa onların problemi həll olunur. Amma digər şəxslər üçün mənzillər daha da əlçatmaz olacaq. Çünki ipotekadan istifadə edə bilənlər artdıqca, qiymətlər daha da yüksəlir və beləliklə bu imtiyaza sahib olmayan insanlar daha çətin vəziyyətə düşürlər. Əgər belə bir addım atsaq, bu, iqtisadiyyatımıza da zərər vura bilər".

### İPOTEKA İLƏ EV ALANLARIN 70 FAİZİ GƏNCLƏRDİR

Məlumat üçün bildirək ki, ipoteka kreditlərinin verilməsi ölkə Prezidentinin 22 iyun 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" ilə tənzimlənir. Qaydaya əsasən, ipoteka kreditləri üzrə maksimal məbləği, illik faiz dərəcələrinin yuxarı həddini ölkədaxili sosial-iqtisadi vəziyyətin təhlili əsasında, formalaşmış ipoteka portfeli üzrə orta parametrləri və digər iqtisadi göstəricilər nəzərə alınmaqla Fondun Himayəçilik Şurası müəyyən edir. Fondun vasitəsilə mənzil şəraitini yaxşılaşdırmış insanların 70 faizi gənclərdir. Fondun tələblərinə uyğun verilmiş ipoteka kreditlərinin 35 faizdən çox hissəsini dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edir. Ümumiyyətlə, dünya təcrübəsində dövlət dəstəyi ilə fəaliyyət göstərən yaşayış maliyyəsi mexanizmlərinin tətbiqinin əsas məqsədi dövlətin sosial mənzil siyasətinin dəstəklənməsi, ödəniş qabiliyyəti olan, şəxsi yığımları davamlı və sabit xarakter daşıyan, lakin yaşayış sahəsinin alınmasına kifayət etməyən, əsas etibarilə aşağı və orta gəlir qrupuna aid edilən insanların uzunmüddətli kreditləşdirilməsi vasitəsilə uyğun qiymətə mənzillərə çıxışının təmin edilməsidir. Artıq uzun illərdir ki, ölkəmizdə dövlət dəstəyilə əhaliyə bazar şərtlərindən fərqli şərtlərlə ipoteka kreditləri təklif edilir, aşağı və orta gəlirli əhalinin ipoteka kreditlərinə çıxışı təmin edilir. Hazırda Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə maksimal illik faiz dərəcəsi səkkiz faiz təşkil etsə də, müvəkkil banklar arasında yaradılmış rəqabət mühitinin nəticəsi olaraq, ipoteka kreditləri üzrə orta faiz dərəcəsi 6,12 faiz təşkil edir, kredit üzrə ilkin ödənişə tələb isə 10 faizdən başlayır. Adi ipoteka kreditləri üzrə maksimal məbləğ 150 000 manat, maksimal müddət 300 ay, illik faiz dərəcəsi səkkiz faiz, güzəştli ipoteka kreditləri üzrə maksimal məbləğ 100 000 manat, maksimal müddət 360 ay, illik faiz dərəcəsi isə dörd faiz təşkil edir.



Mülkədar Rüstəmov

Elçin Rəşidov

SOYUQQANLI ALMAN ANDREASLA QARAŞIN AZƏRBAYCANLI GÜNAYIN MARAQLI SEVGİ HEKAYƏSİ

# ƏKS QÜTBLƏRİN UYUMLU SEVGİSİ



SÖHBƏTLƏŞDİ
ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



**Günay:** “Almanların soyuq olduqları deyilsə də, mən yoldaşımda bunu görməmişəm. Hətta təkcə mən yox, digər insanlar da bunu deyir. Məsələn, harasa getdikdə insanlar ilk baxışda mənimlə o qədər mehriban olmasalar da, yoldaşımı ilk baxışdan sevirlər”.

“Üç günə ayrılarsınız”, “almanlar çətin, soyuq millətdir”, “pasport xətrinə qurulan evlilikdir”, “çox ağlayacaqsan, indidən ayrıl məncə”...

Bu fikirlər əslən alman oğlanla ailə qurmaq qərarına gəldiyi üçün azərbaycanlı xanıma deyilib. O isə, sadəcə qəlbinin səsini dinləyib: “Ətrafdakıların deyil, qəlbimin səsini dinlədiyim üçün özümə təşəkkür edirəm. Çox az insanın çıxdığı bir yola çıxdım. Səninlə eyni yolda getməkdən heç yorulmadım, bezmədim. Bəzən dayandıq, durduq, bəzən isə qaçdıq. Amma əlimizi heç buraxmadıq”.

Hazırda beş illik xoşbəxt evliliyi və bir oğlu var. Bu paylaşımı da evliliklərinin beşinci ildönümlərində sosial şəbəkə hesablarında bölüşüb. Budəfəki “Ailə” rubrikamızın qonaqları alman Andreas Kroger və azərbaycanlı Günay Krogerdir.

**“SALAM”LA BAŞLAYAN MÜNASİBƏT**

Cütlüyümüzün ilk görüşü dostları sayəsində olsa da, onları bir-birinə bağlayan sosial şəbəkə olub. Günay o vaxt Almaniyada təhsil alırmış: “O zamanlar mən Almaniyada təhsil alırdım. Biz Recklinghausendə kiçik bir restoranda tanış olmuşduq. Oraya rəfiqəmlə getmişdim. Andreas da öz dostu ilə gəlmişdi. Rəfiqəm yoldaşımın dostunu tanıyırdı. Biz restoranda bir-birimizi gördükdə sadəcə çox qısa şəkildə salamlaşdıq. İlk görüşdə məndən xoşu gəldiyini hiss etməmişdim. Evə getdikdə ilk öncə dostunun “Facebook” səhifəsindən rəfiqəmi tapıb. Rəfiqəmin də profilindən məni tapıb gecə “salam” yazmışdı. Mən onu səhər cavabladırıb “mən sizi tanımadım axı”, - dedim. Söhbətimiz orada da yarımçıq qaldı. Bir neçə gündən sonra yenidən yazdı. Bu şəkildə yavaş-yavaş danışmağa başladıq”.

**Andreas:** *Azərbaycanlı ilə evlənməyin orası yaxşıdır ki, tez-tez buraya gəlirik. Nabran, Xızı, Bakı və Sumqayıtda olmuşuq. Azərbaycanı çox bəyənirəm.*

Andreas deyir ki, ilk baxışda Günayın qaraşın olması, sonra isə bişirdiyi dadlı təamlar onun diqqətini cəlb edib: “İlk gördükdə görünüşünü çox bəyəndim. Bir az qaraşın olması məndə maraq doğurmuşdu. Lakin qısa şəkildə salamlaşdığımız üçün elə də ciddi bir şey düşünməmişdim. Sadəcə xarici görünüşcə bəyənmişdim. Günayın yeməkləri çox dadlıdır. Onun sayəsində yemək vərdişlərim xeyli dəyişib. Elə ilk bişirdiyi yeməkdən aşiq olmuşdum. Almaniyada da deyirlər ki, “sevgi mədədən keçir”. Milli yeməklərinizdən də bişirirdi. Beləliklə, mənim qəlbimi qazandı”.

**“DƏSTƏYİNİ HƏR ZAMAN HİSS EDİRDİM”**

Günayı isə Andreasın ona olan dəstəyi və heyvanlara sevgisi cəlb edib: “Andreas məni olduğum kimi qəbul edirdi. Məsələn, o vaxtlar mənim alman dilim çox zəif idi. Yenə də bir-birimizi başa düşməyə çalışırdıq. Münasibətimizdəki problemləri də birlikdə aşırdıq. Həmçinin Almaniyada mənə çox dəstək olurdu. Xarici ölkədə təkbaşına idim. O, daim arxamda dayandı. Ayrı şəhərlərdə yaşasaq da, dəstəyini hər zaman hiss edirdim. Düşünürəm ki, məhz bu xüsusiyyətinə görə onu həyatımın adamı olaraq seçdim. Hər zaman nəsə bizi bir-birimizə yaxınlaşdırıb sanki... Onun mərhəmətli olmağı da məni özünə cəlb etmişdi. Heyvanlara qarşı xüsusi sevgisi var. Yolda hansısa heyvanı köməksiz gördükdə ona yardım edir, yaxud zəng vurub xüsusi orqanlara təhvil veririk. Onun bu cür təmiz ürəyinin olması mənə təsir etmişdi”.



**“RESTORANA QƏDƏR GÖZLƏYƏ BİLMƏDİ”**

Günay Andreasın ona evlilik təklifi sürprizindən də danışdı: “Yoldaşım mənə evlənmə təklifi etmək üçün bir-birimizi ilk dəfə gördüyümüz restoranı danışmışdı. Mənə orada evlənmə təklifi etməyi planlaşdırmışdı. Maşına oturduğumuz andan hiss edirdim ki, nəsə çox həyəcanlıdır. O qədər həyəcanlı idi ki, restorana qədər gözləyə bilmədi. Mağazanın dayanacağında üzüyü çıxarıb mənə evlənmə təklifi etdi. Sonra isə birlikdə həmin restorana gedib bunu qeyd etdik. Nikahımızı da eyni yerdə qeyd etmişik”.

Günay uşaqlıqdan əcnəbi ilə ailə qurmağı arzulayıb: “Həmişə sarışın, mavi gözlü oğlanlara xüsusi simpatiyam olub. Yeniyetmə yaşlarımda “Yabancı Damat” adlı serial var idi. Həmişə ona baxıb deyirdim ki, mənim də yoldaşım kaş xarici olardı. Düşünürəm ki, insan bir şeyi ürəkdən istədikdə o, mütləq reallaşır. Amma istəməkdən əlavə, hərəkət də etmək lazımdır”.

**FƏRQLİLİKDƏN YARANAN AİLƏ**

Andreasın fikrincə, Günay və o fərqlidirlər. Lakin sevgiləri də məhz bu fərqlilik sayəsində gözəlləşir: “Bizim ortaq xüsusiyyətlərimizdən çox, fərqliliklərimiz var. Məsələn, mən daha passiv səyahət sevsəm də, Günayda tərsinədir. Sevgimizin sayəsində bu fərqliliklərimizin öhdəsindən gəlirik. Əks qütblər həmişə bir-birini çəkir”.

Cütlüyümüz nə qədər fərqli olsa da, sevgiləri sayəsində ortaq məşğuliyyətlər tapır: “Bizim hər bazar günü birlikdə etdiyimiz məşğuliyyətlərimiz mövcuddur. Hər ikimiz yorğun olsaq da, hava imkan verdikdə həftə sonları ən az bir saat yoldaşım və oğlumla velosiped sürürük, yaxud üzgüçülüyə gedirik”, - deyə Günay vurğulayır.

**“QAYINANAM DA YOLDAŞIM KİMİ ÜNSİYYƏTCİLDİR”**

Almanların xasiyyətcə soyuq olması fikrinə Günaydan tam fərqli münasibət var: “Almanların soyuq olduqları deyilsə də, mən yoldaşımda bunu görməmişəm. Hətta təkcə mən yox, digər insanlar da bunu deyir. Məsələn, harasa getdikdə insanlar ilk baxışda mənimlə o qədər mehriban olmasalar da, yoldaşımı ilk baxışdan sevirlər. Buna ölkəmizdə də şahid olmuşuq. Heç bilmirlər hansı millətdəndir, amma ilk görüşdən onu çox xoş qarşılayırlar. Gəlib şəkil çəkdirirlər, danışmaq istəyirlər. Soruşurlar ki, “bizimlə niyə danışmır”. Deyəndə ki, “almandır”, hətta təəccüblənirlər. Düşünürəm ki, bəlkə də mən yoldaşımdan daha soyuğam. Ailəsindən də heç bir soyuqluq hiss etməmişəm. Qayınanam da yoldaşım kimi ünsiyyətcildir”.

**HƏR ŞEYİN İLKİ ÇƏTİN OLUR**

İndi hər kəs Andreası sevsə də, beş il öncə hər şey bu qədər asan olmayıb: “İlk başda ailəmin münasibətimizi qəbul etməsi çətin olmuşdu. Çünki o zamana qədər ailəmizdən heç kim nə xaricdə təhsil alırdı, nə də xarici vətəndaşla ailə qurmuşdu. O səbəbdən narahatlıqlar var idi. Anam əcnəbi oğlanla ailə qurmağımı istəmirdi. Deyirdi çətin olacaq. Dilimizi, adətlərimizi bilmir, fərqli mühitlərdə böyümüşük, alınmaz. İlk başda dedi-qodular çox olurdu. Amma sevgimizin arxasında dayandıq. O səbəbdən hazırda bərabərik. İndi hamı Andreası məndən çox sevir. Azərbaycana gəldikdə hamı bizi qonaq çağırır. Ona çoxlu hədiyyələr alırlar”.

**“DƏRİN SÖHBƏT EDƏ, DƏRDLƏŞƏ BİLMİRLƏR”**

Günayın qayınanası elə ilk gündən azərbaycanlı gəlinini çox sevib və onların münasibətini dəstəkləyib: “Anam alman dilini bilmədiyi üçün qayınanamla tam ünsiyyət qura bilmir. Daim mən onlar üçün tərcüməçilik edirəm. Bir-biriləri ilə normal yola gedirlər. Düzdür, dərin söhbət edə, dərdləşə bilmirlər. Qayınanam da çox istəyir ki, gəlsin, Azərbaycanı görsün. Mən ona Azərbaycan haqqında danışmışam. Almaniya çox vaxt soyuq olduğu üçün onda ölkəmizə çox böyük maraq yaranıb. Biz Azərbaycanda olanda da ona buradan çoxlu şəkillər çəkib yollayırıq”.

**ALMANIN AZƏRBAYCAN HAQQINDA DÜŞÜNDÜKLƏRİ**

Andreas isə deyir ki, Günaydan öncə Azərbaycanı tanımırmış: “Bilirdim ki, belə bir ölkə var. Amma haqqında məlumata sahib deyildim. Paytaxt Bakını belə tanımırdım. Sadəcə, əvvəllər SSRİ-nin tərkibində olduğunu, həmçinin neft çıxdığını bilirdim”.

Lakin Günayı tanıdıqdan sonra vəziyyət dəyişib. Andreas artıq iki dəfə ölkəmizdə olub. O, Azərbaycanda bəyəndiyi və ona qəribə gələn xüsusiyyətlərdən danışdı: “Azərbaycanlı ilə evlənməyin orası yaxşıdır ki, tez-tez buraya gəlirik. Nabran, Xızı, Bakı və Sumqayıtda olmuşuq. Azərbaycanı çox bəyənirəm. Burada hər şey daha rəqəmsaldır. Məsələn, Almaniyada hələ də məktub sistemi mövcuddur. Azərbaycanda daha asandır. Həm də ən sevdiyim odur ki, burada yağış çox yağmır, hava daha günəşlidir. Hər zaman gəldikdə dənizə gedirik. Sizin ölkəniz çox təmizdir. Düşünürəm ki, estetikaya çox önəm verirlər. Hər yerdə bayrağınızın asılması da mənə maraqlı gəldi. Dəyərlərinizə çox önəm verirsiniz. Məsələn, Almaniyada adi halda küçələrdə bayraq görə bilməzsiniz. Bir də hər yerdə polisin olması, daim yoxlanış, nəzarət olunması çox gözəldir. Metro çox ucuzdur. Almaniyada metroda bir gediş üç avrodur.

Amma burada maşın sürmək çox çətindir. Mənə maraqlı gələn yollarınızdakı xətlərdir. Çünki sürücülər xətti tapdalayıb digər sıraya keçirlər. Maşın sürməyiniz çox qeyri-adidir”.

Andreasın Azərbaycanda ən bəyəndiyi isə yeməklərimizdir: “Azərbaycanın mədəniyyətini, yeməklərini sevirəm. Yeməklərinizdən ən çox bəyəndiyim plovdur. Lülə kabab da çox dadlıdır. Badımcan dolması da gözəldir. Şirniyyatlarınızdan isə paxlavanı bəyənirəm. Yemişiniz də tamlıdır. Düşünürəm ki, burada xiyarın, pomidorun da dadı başqadır”.

## GÜNAYIN SAYƏSİNDƏ MİLLİ BAYRAMLARIMIZI DA UNUTMURLAR



Foto: Əjdər İbrahimov/ Global Media Group

Almaniyada yaşasalar da, Günayın sayəsində milli bayramlarımızı da unutmurlar: “Bayramlarımızdan Novruzu qeyd edirik. Şirniyyatlarımızdan bişirirəm. Oğlumla yumurta boyayırıq, toqquşdururuq. Andreasın ailəsi də Novruz şirniyyatlarımızla tanışdır. Anam Azərbaycandan gəldikdə özü ilə həmişə gətirir. Ramazan bayramını da qeyd edirik”.

Alman kürəkən ölkəmizə səfər etdikdə toylarımızla da tanış olub: “Bir neçə dəfə toylarınızda olmuşam. Orada mənə ən qəribə gələn çox qonağın olması, həmçinin süfrədəki yeməklərin bolluğudur. Yeməklər fasiləsiz olaraq gəlir. Toyda kəsilən böyük tortlar da mənim üçün qeyri-adidir. Toy mahnılarınızı da bəyənirəm. Rəqslərinizi də yavaş-yavaş oynamağı öyrənirəm. Daha doğrusu, rəqs edənlərə baxıb onları təkrarlamağa çalışıram. Bir az çətinlik çəkdiyim ayaq hərəkətləridir. Amma əl hərəkətlərini az-çox edə bilirəm”.

**“DİLİNİZİ DAHA DƏRİNDƏN ÖYRƏNMƏK İSTƏYİRƏM”**

Günayın bir paylaşımında Andreas dilimizi öyrənmək istədiyini bildirmişdi: “Çox sağ ol”, “salam”, “çox yaxşıyam”, “çox ləzzətli” sözlərini bilirəm. Dilinizi daha dərindən öyrənmək istəyirəm. Hətta gələcəkdə təqaüdə çıxdıqda bəlkə buraya köçməyi də düşünə bilərik”.

Günay deyir ki, evlərində həm alman, həm də Azərbaycan dillərində danışırlar: “Mən özüm istəyirdim ki, Andreas dilimizi öyrənsin ki, anamla az da olsa danışa bilsin. Ən çox anam gələndə həvəs yaranır, dilimizi anlamaq istəyir. Düşünürdüm ki, oğlumuz danışmağa başlayanda onunla bərabər dilimizi öyrənəcək. Övladımızla hərəmiz öz dilimizdə danışırıq. Hər ikimizi anlayır”.



**“ALMANLAR DOSTLARINI UŞAQLIQDAN SEÇİRLƏR”**

Səkkiz ilə yaxındır Almaniyada yaşayan Günay orada ona qəribə gələnlərdən bəhs etdi: “Almaniyada mənə ilk zamanlar ən çətin gələn orada həftə sonları hər yerin bağlı olması idi. Çünki burada həftə sonları gəzintiyə çıxmağa, harasa alış-verişə getməyə öyrəşmişik. Orada isə həftə sonu hər kəs evində istirahət edir. İlk başda bu, mənə çox sıxıcı gəlirdi. İndi bazar gününün sakitliyini sevirəm. Bazar günü hər tərəf səssizliyə qərq olur. Pəncərəni açıram, quşların səslərini dinləyirəm. Axşam saat səkkizdən sonra da sanki həyat sönür. Yalnız cümə və şənbə günü insanlar əylənir. Almaniyada dost tapmaq da çox çətindir. Almanların xüsusi dost çevrəsi olur. Məsələn, Andreasın bağçadan bəri görüşdüyü dostları var. Almanlar dostlarını uşaqlıqdan seçirlər. Neçə il birlikdə işləsən də bir-birinə nömrə vermək, dostlaşmaq olmur. Orada insanların öz şəxsi sərhədləri mövcuddur. Münasibətlərin əksəriyyəti sosial şəbəkələr üzərindən qurulur”.

# UŞAQLAR NİYƏ kütləvi şəkildə xəstələnir?



**Hazırda uşaqlar üçün təhlükəli hesab edilən Koksaki virusudur. Həkimlər vurğulayırlar ki, bu virus qızdırma və ishalla müşahidə olunur. Kiçik yaşlı uşaqlar üçün daha təhlükəlidir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar uşaqlar arasında yayılan xəstəliklər valideynlərin narahatlığına səbəb olub. Bəziləri COVİD olduğunu deyir, bir qismi qızılcadan şübhələnir, digərləri isə yeni bir virus yayıldığını iddia edirlər. Xəstəliyi ağır keçirən də var, iki günə sağalan da.

Bəs uşaqlar arasında yayılan xəstəlik əslində nədir? Həqiqətən, koronovirusdur, yoxsa yeni növ virusla üz-üzəyik? Ən əsası, bu virusla necə mübarizə aparmalıyıq?

**QIZDIRMA, ÖSKÜRƏK, HALSIZLIQ...**

Pediatr Vaqif Qarayev deyir ki, payız və qış aylarında havaların soyuması virusların aktivliyini artırır. Bu dövrlərdə respirator infeksiyalar (soyuqdəymə, qrip və s.) daha çox yayılır. Soyuq havada uşaqların immuniteti zəifləyir və viruslara qarşı həssas olurlar: "Hazırda uşaqlar arasında yayılan mövsümi viruslardır. Bu, hər il olub, olacaq da. Ölkə ərazisində havalar tez-tez dəyişir. Bu mövsümdə daha çox tənəffüs sistemini zədələyən respirator viruslar baş qaldırır. Ümumi əlamətləri isə qızdırma, burun tıxanıqlığı, öskürək, halsızlıq və zəiflikdir. Valideynlərin bəziləri COVID olduğunu düşünür. "COVID yoxdur" demirik, amma hazırda koronavirusla bağlı ölkədəki vəziyyət qənaətbəxşdir. Bu viruslar COVID deyil, mövsümi viruslardır".

**ZƏNGLƏRİN ARDI-ARASI KƏSİLMİR**

Virusla mübarizə aparmağın yollarına gəldikdə isə, pediatr deyir ki, onun kütləvi şəkildə yayılmasının səbəbi bağçalar və məktəblərdir: "Xüsusilə, 16 sentyabrdan sonra uşaqların xəstələnməsi ilə bağlı zənglərin ardı-arası kəsilmir. Valideynlər də şikayətlənirlər ki, uşaq məktəbə gedir, xəstələnib gəlir. Uşaqların qapalı məkanlarda, xüsusən də məktəblərdə və bağçalarda sıx təmasda olması virusların asanlıqla yayılmasına şərait yaradır. Qrup şəklində tədris zamanı bir uşağın xəstə olması digərlərinə də infeksiyanı ötürə bilər. Bunun səbəbi məktəb, yaxud bağça deyil, valideynlərdir. İnfeksiya məktəbdən öncə də var idi. İnfeksiyanı yaradan məktəb deyil. Sadəcə olaraq, xəstə uşaq məktəbə getməməli, evində oturmalıdır. Uşağını xəstə-xəstə məktəbə yola salan valideyn həm öz övladını təhlükəyə atır, həm də digər uşaqları yoluxdurur. Çünki xəstə uşaq evdə istirahət etməsə, gec sağalır, hətta bəzən ağırlaşma halları olur. Biz bunu valideynlərə izah edə bilmirik. Mövsümi viruslar ev şəraitində üç-dörd günə sağala bilər. Əsas qızdırmaya nəzarət etmək, meyvə-tərəvəzlərlə zəngin menyu və yataq rejimidir. Ümumiyyətlə isə, əllərin düzgün yuyulmaması, sanitariya qaydalarına riayət olunmaması virusların yayılmasını asanlaşdıran əsas faktorlardandır. Uşaqlar arasında gigiyenik vərdişlərin aşılanması vacibdir".



## UŞAQLAR ÜÇÜN TƏHLÜKƏLİ VİRUS - KOKSAKİ



Hazırda uşaqlar üçün təhlükəli hesab edilən virus isə Koksakidir. Həkim vurğulayır ki, bu virus qızdırma və ishalla müşahidə olunur: "Bu virusu kiçik yaşlı uşaqlar üçün daha təhlükəli hesab edirəm. Çünki qusma və ishalla uşaqlar maye itirir, bu, kompensasiya olmalıdır. Üç yaşa qədər, xüsusilə südəmər uşaqlarda həkim nəzarəti mütləqdir. Evdə müalicə, həkim məsləhəti olmadan uşağa antibiotik vermək vəziyyəti daha da pisləşdirir. Xəstəliyin əlamətlərinə gəldikdə isə, hərarət yüksəlir, ağızda, əllərdə, ayaqlarda, bəzən genital nahiyədə səpkilər müşahidə olunur. Spesifik müalicəsi yoxdur, hərarətə nəzarət etmək, ağız boşluğunun gigiyenasına fikir vermək lazımdır. Virus düzgün müalicə olunarsa, 5-7 gün ərzində keçir".



**COVID TESTİ POZİTİV ÇIXAN UŞAQLAR DA VAR**

Pediatr Nigar Mirzəyeva da təsdiqləyir ki, müraciət edən uşaqlarda yüksək hərarət, davamlı asqırma, burun axıntısı, əzələ və boğaz ağrısı müşahidə edilir: "Payızın gəlişi, məktəb və bağçaların açılması səbəbilə uşaqlar arasında kəskin respirator virus infeksiyaları ilə yoluxma halları artmaqdadır. Viruslar yoluxucu olduğu üçün qapalı məkanlarda bir uşaq xəstələndiyi zaman bütün uşaqlar bu virusa yoluxurlar. Yoxlanışa gələn uşaqlarda aparılan qan və ya boğaz yaxma analizlərində COVID testi pozitiv çıxan uşaqlar da olur".

## AĞIRLAŞMALARIN QARŞISINI ALAN ƏN YAXŞI VASİTƏ

Xəstəliyin müalicəsinə gəldikdə, pediatr vurğulayır ki, digər virus infeksiyalar kimi bol maye qəbulu, istirahət və simptomatik müalicə aparılır: "Hərarətsalıcı, öskürək əleyhinə müalicə, burun tıxanıqlığı və ya axıntısı ilə bağlı burun damcıları təyin olunur. Qorunma yollarına gədikdə isə, ilk olaraq, bağça və məktəbə getməzdən öncə, uşaqların yaşa uyğun bütün peyvəndlərinin tamamlanması məsləhətdir. Peyvəndlər virusa bağlı ağırlaşmaların qarşısını alan ən yaxşı vasitədir. Bu gün uşaqların ağırlaşmalarla xəstəxanaya yatış səbəbi əsasən, inflüenzadır. Xüsusilə oktyabr-noyabr aylarında qrip peyvəndi ilə bundan qorunmaq mümkündür. Hazırda həm dövlət, həm də özəl xəstəxanalara müraciət edib yararlana bilərlər".



Vaqif Qarayev

Həkimlər vurğulayır ki, viruslardan qorunmaq üçün uşaqlar tez-tez əllərini yumalı, gigiyenik qaydalara riayət etməli, onların sağlam və balanslı qidalanmasına diqqət yetirilməli, olduqları məkanların havasını tez-tez dəyişməli və mövsümə uyğun geyimlər seçərək havanın təsirlərindən qorunmalıdırlar. Peyvəndlər, xüsusilə qripə qarşı vaksinlər, uşaqların virus infeksiyalarına qarşı müdafiəsini gücləndirir.



Nigar Mirzəyeva

Üç əsrin qəzeti Kaspi



# PƏNAHƏLİ XANIN İMARƏTİ




## İMARƏTİN ZAMAN-ZAMAN BƏRPASI

**Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbəsi, həmçinin xanın qızı, görkəmli şairə Xurşidbanu Natəvanın məzarı İmarət kompleksində yerləşib. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər buradakı qəbiristanlıqda dəfn ediliblər.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Şuşa-Ağdam magistral yolu ilə irəlilədikcə, 1993-cü ildə işğal edilən Ağdamın simasındakı faciə izləri aydın görünür. İşğaldan sonra xarici nəşrlər əbəs yerə "Qafqazın Hirosiması", "Ruhlar şəhəri" adlandırmayıblar bu şəhəri.

2020-ci ilin noyabrında - işğaldan azad ediləndən sonra rayonda minadan təmizləmə və kütləvi quruculuq işlərinə başlanıb. Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması işləri də bu layihələrdən biridir...

### AĞDAMIN YENİ HƏYATI

"Əsgəranın ərazisi bitən kimi Ağdamın ərazisi başlayır. Bu ərazi Qarağacı qəbiristanlığından başlayır. Orada bir neçə tarixi qəbir, türbələr olub. Bütün Ağdam şəhərinin və bitişik kəndlərin əhalisi o qəbiristanlıqda dəfn edilib", - deyə səfər yoldaşımız, "Ağdam və mən" telelayihəsinin müəllifi Səadət Məmmədova Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Şuşada təşkil etdiyi "İdeoloji mübarizədə din amili: mediadan gözləntilər" adlı seminar iştirakçılarının Ağdama səfərləri zamanı məlumat verir.

"Şiddətli döyüşlər vaxtı tarixi qəbiristanlıq birbaşa təmas xətti olduğuna görə orada heç kəs əzizini dəfn edə bilmirdi. Təxminən 60 hektar ərazisi olan qəbiristanlıqdan bahalı mərmər daşları ermənilər yığıb aparıb. Köhnə, ucuz başdaşları isə yerindədir. Artıq insanlar xeyli məzarı tapıb üstündə qohum-əqrəbalarının kimliyini, doğum və ölüm tarixlərini yazıblar. O cümlədən, mənim atam, nənəm, atamın nənəsi və babası da bu qəbiristanlıqda dəfn olunub..."

S.Məmmədova Şelli kəndinə gedən yolu göstərir: "Baxın, Mantar dağını çapıblar, oradan çıxan daşdan və əhəngdən Ağdamın quruculuğunda istifadə edilir..."

İrəlilədikcə, "Ağdam" portveyni kimi məşhur olan "Şampan zavodu"nun binasının dağıntıları, Əhmədavar kəndinin ərazisində tarixi Qarabağ memarlığını özündə əks etdirən, şərti olaraq "bəy evləri" deyilən bir neçə böyük evin və ermənilərin viran qoyduğu digər evlərin yanından ötürük.

Ağdam Dram Teatrının tağlarının arxasından 1 nömrəli məktəbin və uşaq bağçasının tikintiləri görünür. Prezidentin Xüsusi Nümayəndəliyinin müvəqqəti düşərgəsinin, Konqres binasının və Ağdam hotelinin yaxınlığından keçib Cümə Məscidinə çatırıq....

### PƏNAHƏLİ XANIN MÜLKÜ

Yolumuz yenicə ziyarətçilərə açılan Ağdam İmarət Kompleksinədir. Sentyabrın 19-da Prezident İlham Əliyev bərpadan sonra kompleksin açılışını edib.

Xan nəslinin ilk mülklərindən olan bu tarixi-memarlıq abidəsi XVIII əsrdə tikilib. Saray dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıdığından "Pənahəli xanın imarəti" adlandırılıb. Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbəsi, həmçinin xanın qızı, görkəmli şairə Xurşidbanu Natəvanın məzarı İmarət kompleksində yerləşib. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər buradakı qəbiristanlıqda dəfn ediliblər. Ağdam şəhəri işğal edildikdən sonra digər tarixi-mədəni və dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən vandalizmə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də dağıdılıb.

"Mənim babam 1927-ci ildə bu məhəllədə doğulub. O, bizə İmarətin əvvəlki formasının necə olduğunu danışmayıb, bu barədə daha çox bibilərimdən eşitmişəm", - deyə S.Məmmədova davam edir: "İmarətin əsasının Pənahəli xan tərəfindən qoyulduğu deyilir. İkinci günbəzin ortasında əzəmətli kişi skeletinin Pənah xanın olması ehtimal edilir. Amma Pənah xanın orda və ya Kərbəlada basdırılması xəbəri tam təsdiqini tapmayıb. Birinci günbəzdə dəfn olunan Mehdiqulu xan Vəfadır - bu, dəqiqləşib. Mehdiqulu xanın sümükləri ilə tutuşdurulması, xüsusən də Pənah xanın skeletinin orda olub-olmadığını müəyyən edə bilmək üçün sərdabə tipli qəbirlərin hamısından DNT nümunələri götürülüb. İmarətdə üzərində 1321-ci il yazılan qəbir görmüşük. Daha qədim qəbirləri tapmaq üçün arxeoloji tədqiqatlar aparılanda iki metr dərinlikdə qazıntılar həyata keçirilib və skeletlər görünüb. Hazırda kafe kimi fəaliyyət göstərən yerdən çıxan 19 qəbri köçürülmə qəbir adı ilə qıraq tərəfdə, hasarın yanında basdırıblar. Bu da bir daha sübut edir ki, bu ərazi qədim yaşayış məskəni və qəbiristanlıq ərazisidir".

"1951-ci ildə İmarət həm də "Qarabağ" futbol klubuna stadion olaraq ayrılıb. 1969-70-ci illərdə İmarətin bərpasına başlasalar da, bərpa işləri yarımçıq qalıb. Sadiq Murtuzayev rayonun partiya komitəsinin katibi olduğu illərdə Ağdamın intibah dövrü olub. Həm mədəni tədbirlərin, həm də futbol oyunlarının keçirilməsi üçün İmarəti təmir etmək qərara alınıb. 1965-ci ildə əraziyə qoruq statusu verilib".

80-ci illərin bərpasından sonra İmarətdə "Natəvan qızlar bayramı" və "Qarabağ" futbol klubunun oyunları keçirilib.

### TƏDQİQAT İŞLƏRİ DAVAM EDİR

Ölkə başçısının tapşırığına uyğun olaraq 2023-24-cü illərdə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə bərpa və arxeoloji tədqiqat işlərinə başlanılıb. "Hazırda kompleksin ərazisindəki 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində yeni tarixi faktlar üzə çıxarılıb"- deyə Ağdam, Füzuli və Xocavənd üzrə Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı Faiq Hacıyev məlumat verir: "Ağdam İmarət Kompleksi artıq ziyarətçilər üçün açıqdır...."

İmarət Kompleksinə gələn qonaqlar burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə bilərlər. İnteraktiv muzey kompleksində müxtəlif zamanlarda Cavanşirlər sülaləsinə həsr olunmuş məlumatlar, Qarabağ xanlığı haqqında tarixi faktlar, Xurşidbanu Natəvanın əl işlərinə və poemalarına həsr olunmuş audiovizual təqdimat, İmarət Kompleksinin işğal dövründə və işğaldan azad olunduqdan sonrakı vəziyyətini əks etdirən fotomateriallar nümayiş olunur.



# ABORTLARLA BAĞLI DƏHŞƏT SAÇAN STATİSTİKA

**Azərbaycanda abortların sayının artması ciddi narahatlıq doğurur. Təkcə son üç ilin statistikası göstərir ki, bu istiqamətdə müvafiq təbliğat və maarifləndirmə işlərinə baxmayaraq, vəziyyət düzəlmir. Rəqəmlər mövcud durumun daha da pisləşməsindən xəbər verir.**

SEVİNC ABBASOVA

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkəmizdə 73 816 abort qeydə alınıb. Abort edənlərin çoxunun yaşı gəncdir. Belə ki, 2023-cü ildə abort edən qadınların 50 faizdən çoxu, yəni 37 min nəfəri 15-29 yaş aralığındadır. Statistikaya görə, ötən il 15-17 yaş aralığında 68 qadın, 18-19 yaş aralığında olan 2 528 qadın abort etdirib. 2021-ci ildə abort edənlərin sayı 46 877, 2022-ci ildə 57 999 olub. 15-49 yaşlı hər 1 000 qadına düşən abortların sayı 27,9 təşkil edib. Statistikadan da görünür ki, say çox sürətlə artır. Aparılan təbliğat da heç bir effekt vermir. Bəs, görəsən, problemin həlli yolları varmı? Bəlkə artıq inzibati qaydada hansısa addımların atılmasının vaxtı çatıb?



### ABORTA ALTERNATİV VARİANT OLMADIĞI HALDA MÜRACİƏT EDİLMƏLİDİR

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Rafiq Mahmudov da ölkədə abortların sayının artdığını təsdiqləyir. Onun sözlərinə görə, son 10 il ərzində abortların bir neçə dəfə artması müxtəlif səbəblərlə bağlıdır: "Yaş kateqoriyası üzrə bölgüyə diqqət yetirsək görə bilərik ki, abortlar 25-34 yaş arasında olanlar arasında daha çox tətbiq olunur. Bu, nikah yaşı dövrüdür. Bu kimi halların mövcudluğu onu göstərir ki, bu gün gənclərin reproduktiv sağlamlıq və ailə planlaşdırılması ilə bağlı bilikləri azdır. Bu mövzular ətrafında işlərin daha gücləndirilmiş bir formada aparılmasına ehtiyac var ki, ailələr aborta yalnız alternativ variant olmadığı halda müraciət etsinlər. Abortları yaradan digər səbəblər isə cəmiyyətdə hələ də mövcud olan stereotiplərdir. Bu stereotiplər ailədə oğlan uşaqlarına qarşı olan üstünlük və istəkdən irəli gəlir".



Rafiq Mahmudov

### DÖLÜN CİNSİNİN MÜƏYYƏN EDİLMƏSİNƏ QADAĞA QOYULSA...

R.Mahmudov vurğulayır ki, beynəlxalq praktikada bu kimi halların qarşısını almaq üçün normativ hüquqi bazada ana bətnində olan dölün cinsiyyətinin müəyyən edilməsi ilə bağlı qadağa mövcuddur: "Digər ölkələrin təcrübəsinin öyrənilməsi istiqamətində aparılan araşdırmalar göstərib ki, USM-nin səhiyyədə tətbiqindən sonra selektiv abortların sayında artım müşahidə olunub. Son illər eyni tendensiyanı bizdə də görmək olar. Bunun nəticəsi bu gün Azərbaycanda hər 100 qız uşağına 114-116 oğlan uşağının dünyaya gəlməsidir. Normada bu göstərici 100 qız uşağına 104-105 oğlan uşağının olmasıdır. USM-nin əsas istiqaməti ana bətnində olan uşağın sağlamlığının qorunması, yoxlanılması və izlənilməsidir. Lakin valideynlər burada cinsiyyətin müəyyən olunmasını prioritet olaraq seçirlər. Əgər USM müayinəsi aparan həkimlərə dölün cinsinin müəyyən edilməsinə qadağa qoyulsa, bu, həm selektiv abortlarının yayılmasına və qarşısının alınmasına, eyni zamanda cins nisbətinin stabilləşdirilməsinə kömək edə bilər".



### HƏR HANSI MƏSULİYYƏT YOXDUR

Hüquqşünas Ruslan Vəliyev hesab edir ki, abortların qarşısını almaq üçün inzibati qaydada müdaxilənin vaxtı çoxdan yetişib. Onun fikrincə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə müvafiq əlavələrin edilməsi zəruridir: "Azərbaycanda abortların sayının artması birmənalı şəkildə selektiv abortlardan qaynaqlanır. Qanunvericilikdə selektiv abortla bağlı hər hansı məsuliyyət yoxdur. Düzdür, "Əhalinin sağlamlığının qorunması haqqında" qanun var. Həmin qanunda hansı hallarda və hansı səbəblərdən aborta icazə verildiyi barədə qeyd edilib. Amma yaxşı olardı ki, abortlarla bağlı məsələ ən azından İnzibati Xətalar Məcəlləsinə salınsın və hər iki tərəf üçün məsuliyyət yaratsın".

### "SANKSİYALARIN MƏBLƏĞİ 20-30 MİN MANAT CİVARINDA OLMALIDIR"

R.Vəliyev deyir ki, mövcud problem kompleks yanaşma tələb edir: "Biz əminliklə deyə bilmərik ki, bununla bağlı inzibati məsuliyyət yaranandan sonra vəziyyət müsbətə doğru dəyişəcək. Mövcud problemə kompleks yanaşma lazımdır. İlkin olaraq İnzibati Xətalar Məcəlləsinə müvafiq sanksiyalar əlavə etmək və həmin sanksiyaları təcrübədə tətbiq etməklə kifayətlənmək olar. Tibb müəssisələri üçün nəzərdə tutulan bu cərimə sanksiyalarının məbləği 20-30 min manat civarında olmalıdır. Əgər vəziyyət dəyişməzsə, o halda Cinayət Məcəlləsinə də müvafiq maddələr əlavə edilə bilər. Əməliyyatı icra edən tibb personalı ya həbs cəzası almalı, ya da fəaliyyətinə qadağa qoyulmalıdır".

## "AYIBDIR, GÜNAHDIR" DEMƏKLƏ MƏSƏLƏ HƏLL OLUNMUR

Sosioloq Əhməd Qəşəmoğlu indiyədək bu istiqamətdə aparılan təbliğat və maarifləndirmə işlərini qənaətbəxş hesab etmir. Onun fikrincə, abortların qarşısının alınması yönündə atılan addımlar kortəbii xarakter daşıyır: "Gərək ölkədə bununla bağlı sosial siyasət dəyişsin, ümumi fəaliyyət planı hazırlansın. Yoxsa insanlara "ayıbdır, günahdır, abort etməyin" deməklə bu məsələ həllini tapmaz. Əsas səbəbləri aydınlaşdırmaq lazımdır. Bir tərəfdən ciddi elmi əsaslarla, yeni metodla maarifləndirmə olmalıdır. Digər tərəfdən, bu sahədə müəyyən bir hüquqi təzyiq yaradılmalıdır. Çalışmaq lazımdır ki, insanlar özləri bunu dərk eləsinlər".

### HƏKİMLƏR DƏ BAŞQA ÇIXIŞ YOLU GÖRMÜR

Cərrah mama-ginekoloq Ləman Əliyeva da inzibati qaydada təsir mexanizmlərinin yaradılmasının tərəfdarıdır: "Görürük ki, problemi maarifləndirmə, təbliğat aparmaqla aradan qaldırmaq mümkün deyil. Məsələn, mən abort üçün yanıma gələn xəstədən imtina etsəm, o, başqa həkimin yanına gedəcək. Amma abortlarla bağlı inzibati qaydada təsir mexanizmləri olsa, vəziyyət müəyyən qədər dəyişə bilər".



Ləman Əliyeva

Kaspi ÜÇ ƏSRİN QƏZETİ



# "MƏN HARA, RAYON HARA?"




**Müəllimlərin işə qəbulu üzrə müsabiqədə üç ildir ki, iki mindən artıq vakansiya tutulmur. Müəllim işləmək istəyənlər bu vakansiyalara maraq göstərmirlər. Ekspertlər problemin həlli üçün kompleks yanaşma tələb olunduğu qənaətindədirlər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Aktrisanın təbəssümü" televiziya filmi 1974-cü ildə çəkilib. Xalq artisti Nəsibə Zeynalovaya həsr olunan bioqrafik komediyanın süjet xəttində yer alan hadisə üstündən əlli il keçsə də, günümüzü olduğu kimi əks etdirir: aktrisanın ali məktəbi bitirib Masallıya təyinat alan qızı "Mən hara, rayon hara?"- deyə göz yaşları içində rayon məktəbində işləməkdən imtina edir. Rayonda işləməyə təkcə, ali məktəbi bitirən gənc qız deyil, anası və qohumları da kəskin etiraz edirlər...

Bu günlərdə "Müəllimlərin işə qəbulu üzrə müsabiqədə 2 mindən artıq yerin 3 ildir seçilməməsi" ilə bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin açıqlaması da bu tip yanaşmaların yaratdığı problemdir. Belə ki, MİQ imtahanının nəticələrinə görə, artıq illərdir yüksək nəticə göstərən müəllimlər Bakı və ətraf ərazilərdəki məktəblərə üstünlük verirlər. Vakant yerlər isə ucqar rayonlarda olan məktəbləri, rus bölməsində olan bəzi fənləri əhatə edir: "Ən azından 40 balı keçən namizədlər həmin 2 min vakant yerə müraciət etsə idilər, işə qəbul oluna bilərdilər. Təcrübə göstərir ki, bu müəllimlərdən yüksək bal toplayanlar Bakı şəhərində, daha az bal toplayanlar isə bölgələrdə fəaliyyətə başlayır və ya bölgələrdəki vakant yerlərini seçən şəxslər sonradan həmin iş yerindən imtina edirlər".

Xatırladaq ki, dövlət ucqar rayonlarda çalışan müəllimlər üçün müxtəlif güzəştlər tətbiq edib. Bəs müəllimləri ucqar kəndlərdən və bölgələrdən qaçmağa nə məcbur edir?




Məsələyə münasibətdə ekspertlərin fikirləri də maraq doğurur.

## HƏVƏSLƏNDİRİCİ PAKETLƏR OLMALIDIR

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Pərvanə Bayramova hesab edir ki, ilk növbədə müəllimləri bölgələrə getməyə həvəsləndirən sosial imtiyaz paketləri olmalıdır: "Bu problem hər zaman var və kompleks yanaşma tələb edir. Həvəsləndirici paketlər olmalıdır ki, gənc qadınlar, ailə cütlükləri ucqar məktəblərdə işləməyə getsinlər. Digər tərəfdən, bölgələrdə çalışan müəllimlərin özlərini inkişaf etdirmələrinə dəstək olunmalıdır". İŞ üzvünün fikrincə, hələ tələbəlik dövründə regionlarda işləmək mədəniyyətini gənclərdə inkişaf etdirmək lazımdır: "Hesab edirəm ki, ali məktəblərdə tələbələr müəllim kimi hazırlanan vaxt bu mədəniyyət də onlarda formalaşmalıdır ki, onlar ucqar yerlərdə işləməkdən imtina etməsinlər. Yerlərdə qazanılan təcrübənin daha əhəmiyyətli olduğunu onlara başa salmaq lazımdır".

## SOSİAL İMTİYAZLARIN ARTIRILMASINA EHTİYAC VAR

"Müəllimlərin böyük əksəriyyəti qadınlardır. Xüsusən də, gənc və yeni ailə quran qadınlardır. Onlar üçün belə vəziyyətdə ucqar kəndlərdə işləmək ciddi problem yaradır. Bəzən ailələri, valideynləri icazə vermir. Kişi müəllimlər isə yüksək əmək haqqı marağındadırlar", - deyə Əməkdar müəllim, Amonaşvili Humanist Pedaqogika Akademiyasının professoru Asif Cahangirov məsələyə münasibət bildirir. Ekspert hesab edir ki, Elm və Təhsil Nazirliyi ucqar kəndlərdə və ümumən kənd yerlərində işləyən müəllimlər, təhsil işçiləri haqqında ciddi düşünməli, yeni seçilmiş Milli Məclis isə bunun qanunvericilik bazasını müəyyənləşdirməlidir: "Yerli sakin olmayan müəllimlər üçün əhəmiyyətli dərəcədə rəğbətləndirmə tədbirləri nəzərdə tutulmalıdır. Hesab edirəm ki, onların əmək haqqı bir neçə dəfə artırılmalı, sosial imtiyazlar müəyyən olunmalıdır. Mənzil şəraiti ilə bağlı məsələlər də həll olunmalıdır. Əgər bu məsələlər həll olunsa, sözsüz ki, yüksək bal toplayan müəllimlərin bir qismi kənddə, rayonda işləməyə həvəsli olarlar".


Asif Cahangirov

Ekspertin fikrincə, ümumi təhsilin keyfiyyəti baxımından hazırda Azərbaycanda ən vacib problemlərdən biri kənd məktəbləri ilə şəhər məktəbləri arasındakı kəskin fərqin aradan qaldırılmasıdır: "Təsəvvür edin, Finlandiyada kənd məktəbləri ilə şəhər məktəbləri arasında keyfiyyət baxımından fərq cəmi 7 faiz təşkil edir. Bir neçə il əvvəl inkişaf etmiş Almaniyada bu fərq 42-47 faiz təşkil edirdi. Bizdə, bəlkə də, bu fərq 80 faizdən də çoxdur. Kənd məktəblərində nə qədər yüksək intellektli şagirdlərin istedadı məhv olur. Çünki onlar keyfiyyətli təhsil görmürlər. O məktəblərdə zəif müəllimlərin sayı həddindən artıq çoxdur. Həmin məktəblərə güclü müəllimlər göndərilməlidir. Bunun üçün kənd yerlərinə müasir hazırlığa malik müəllimlər gəlməli və onların fəaliyyəti əhəmiyyətli dərəcədə stimullaşdırılmalıdır".

## RAYONLARDAKI MƏKTƏBLƏRİN ÇOXUNDA ŞƏRAİT YOXDUR

ADPU-nun Məktəbəqədər Təhsilin Pedaqogikası kafedrasının baş müəllimi Xalidə Həmidova hesab edir ki, gənclər ali məktəbi bitirdikdən sonra çox vaxt paytaxtın ab-havasından qopmaq, şəhərdən getmək istəmirlər: "Biz tələbələrə bu sualı verəndə çoxunda Bakıda qalma həvəsinin olduğunu müşahidə edirik. Rayonlarda iş yerlərinin az olması və ya prioritetli olmamasını bildirir, bu istiqamətdə inkişafın o qədər də fayda verməyəcəyini düşünüb getmək istəmirlər. Bəziləri magistratura təhsilini davam etdirmək üçün qalır. Ondan sonra da regionlara geri dönmək istəmirlər. Bu da nəinki bağça və məktəblərdə, ümumiyyətlə bir çox sahələrdə problemlər yaradır". X.Həmidova hesab edir ki, bu məsələdə "regionlarda müəllim nə qədər inkişaf edə bilir?", "prosesdə nə qədər faydalı ola bilir?" kimi inkişaf tendensiyasına baxmaq lazımdır. Həmçinin, sosial imtiyazlara nəzər salmağa da ehtiyac var: "Müəyyən güzəştlər olmalıdır. Hesab edirəm ki, regionlardakı məktəblərin inkişaf tendensiyası artırılsa, oradakı şərait düzəlsə, işləmək istəyənlər olacaq. Bilirsiniz ki, ucqar kəndlərdə məktəblərin çoxunda şərait yoxdur. Onlar üçün şərait yaradılsa, inkişafları üçün təlimlər keçirilsə, konfranslar və s. təşkil olunsa, problemin həllində daha uğurlu nəticə əldə etmiş olarıq".


Xalidə Həmidova

# YOLLARIMIZIN YENİ, ZOLAQLI PROBLEMİ

Avtobus zolaqları marşrutların intensivliyini tənzimləsə də, müəyyən problemlərə yol açır. Ekspertlər bildirirlər ki, yollarda monitorinqlər aparılmalı, real şəraitə uyğun dəyişikliklər edilməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



"Avtobus zolaqlarına daxil olmaq mümkün deyil, çünki cərimə yazılır. Bu səbəbdən sərnişin düşürmək istədikdə yolun ortasında saxlamalı oluruq. Bu yaxınlarda bir xanımı maşından düşdükdə avtobus vurmuşdu..."

"Avtobuslar üçün zolaqlar olsa da, onlar digər nəqliyyat vasitələri üçün yoldan istifadə edirlər. Səbəbini isə yol kənarında olan ağaclarla əlaqələndirirlər. Əgər zolaq istifadə olunmayacaqsa, nə üçün çəkilib?"

Hər iki şikayət sosial şəbəkələrdə yazılıb. Avtobus zolaqlarının çəkilməsi nəqliyyatın intensivliyi baxımından gözəl addımdır. Lakin özü ilə bu cür problemlər də gətirir.

### 100 MANAT CƏRİMƏ, İKİ BAL

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, hazırda paytaxtın 25 küçə və prospektində uzunluğu 77 km-dən çox xüsusi hərəkət zolaqları təşkil edilib. Bu işlər davam etdirilir. Avtobus zolağına şəxsi nəqliyyat vasitələrinin daxil olması qadağandır: "Zolağa daxil olan şəxsi minik avtomobilləri onlarla avtobusun hərəkəti ilə yanaşı, minlərlə sərnişinin də vaxtında təyinat yerinə çatmasına maneə yaradır. Avtobus zolaqlarından digər nəqliyyat vasitələrinin istifadəsinə görə inzibati tənbeh tədbiri müəyyən edilib. Belə ki, bu inzibati xəta 100 manat məbləğində cərimə və əlavə olaraq iki balla qiymətləndirilir. Taksi nəqliyyat vasitələrinin avtobus zolağından istifadə etməsi hazırda müzakirə olunmur".

Ağaclarla bağlı məsələyə gəldikdə isə qeyd edildi ki, avtobusların hərəkətinə mane olmaması üçün ağacların budanması məqsədilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən Bakı Şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyinə müraciət olunub.

### 48-Cİ MADDƏDƏ GÖSTƏRİLƏN MÜDDƏALAR İSTİSNADIR

DYP-dən verilən məlumata görə, digər avtonəqliyyat vasitələrinin avtobus zolaqlarından istifadəsi qadağan edilsə də, istisna hallar da mövcuddur: "Nəqliyyat vasitələri avtobus dayanacağında saxlayırlar. Sərnişinlər də rahat şəkildə düşürlər. Avtobus zolaqları elə çəkilib ki, birbaşa hərəkət edib dayanacaqda saxlayırlar. Digər nəqliyyat vasitələrinin hər bir halda avtobus zolağında dayanması və durması qadağandır. Amma yol hərəkəti haqqında 48-ci maddədə göstərilən müddəalar istisna olmaqla".

Həmin maddəyə əsasən, üstündə "polis", "təcili tibbi yardım", "yanğınsöndürən" yazıları olan, habelə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər nəqliyyat vasitələri xüsusi tapşırığı yerinə yetirərkən üstün hərəkət rejiminə malikdirlər.

IV. 5.9, 5.10.1-5.10.3 nişanları ilə işarə edilmiş, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş zolağı olan yollarda hərəkət edən digər nəqliyyat vasitələrinin həmin zolaqda hərəkəti və dayanması qadağandır. Əgər bu zaman həmin zolaq qırıq-qırıq nişanlama xətti ilə qalan hərəkət hissəsindən ayrılmışdırsa, nəqliyyat vasitələri dönərkən bu zolağa keçə bilərlər. Həmçinin belə yerlərdə yola girərkən və hərəkət hissəsinin sağ kənarında sərnişinlərin minməsi və düşməsi üçün bu zolağa keçməyə icazə verilir, lakin bu, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün maneə yaratmamalıdır.

## İKİ ZOLAQDAN İBARƏT KÜÇƏLƏR

Nəqliyyat eksperti Fərhad Eyyubovun fikrincə, hazırda Bakıda tıxac olduqda müntəzəmlik təmin olunmur: "Çünki avtobuslar tıxacda ilişib qalır. İntervallar böyüyür, gözləmə müddəti artır. Çalışırlar ki, avtobusun manelərini azaltsınlar ki, onlar da öz hərəkət cədvəllərinə uyğun olaraq müntəzəm marşrutla hərəkət edə bilsinlər. Avtobuslar üçün bu şəraiti yaratmaq lazımdır. Bunun üçün də yol hərəkətində müəyyən dəyişikliklər edilməlidir".

Ekspertin sözlərinə görə, Bakı elə bir şəhərdir ki, bu şəraiti hər yerdə yaratmaq mümkün deyil: "Əslində avtobus zolaqları üç zolaqlı yollara çəkilməlidir. Bir zolaq marşrutlar üçün olanda, digəri avtomobillər üçün nəzərdə tutulur. Amma bir çox yerlərdə üç zolaq yoxdur. Avtobus zolaqlarının olduğu küçələrin əksəriyyəti iki zolaqdan ibarətdir. Ona görə zolağın biri avtobus üçün olanda, bütün nəqliyyat vasitələri bir zolaqda toplanır".



Fərhad Eyyubov

F.Eyyubov bildirdi ki, zolaqlar olan yollarda sağa, sola dönmələr, müəyyən yerlərdə dayanma yerləri olmalıdır. Amma zolaqlar salınarkən bunlar nəzərə alınmır: "Yol hərəkətinin təhlükəsizliyinə də diqqət yetirilməlidir. Sürəti də optimal şəkildə saxlamaq vacibdir. Bir çox hallarda avtobus zolağı çəkilən zaman digər nəqliyyat vasitələri maneəyə rast gəlir, çətinliklər olur. Avtobuslar müntəzəm fəaliyyət göstərməlidir, amma digər nəqliyyat vasitələrinə mane olmamaq şərti ilə. Məsələn, təcili yardım, yanğın söndürən maşınlarının oradan hərəkəti nəzərdə tutula bilər. Amma bütün taksilərin, digər nəqliyyat vasitələrinin istifadəsinə icazə verilsə, yenidən marşrut xətləri iflic olacaq".

## "HƏLƏ NƏQLİYYATLA BAĞLI MƏSƏLƏLƏR TAM TƏKMİLLƏŞMƏYİB"

Ekspertin fikrincə, avtobus zolaqlarının olduğu hər küçədə monitorinqlər aparılmalıdır. Digər nəqliyyat vasitələrinə maneçilik törədirsə, o zaman başqa üsullara müraciət etmək lazımdır: "Zolaq çəkiləndən sonrakı mərhələni, problemləri də gözdən qaçırmaq olmaz. Hələ nəqliyyatla bağlı məsələlər tam təkmilləşməyib. Avtobus zolaqları müəyyən yerlərdə qırıq-qırıq xətlərlə icazə verilən formada təşkil olunsa, daha yaxşı olar. Hansı yerdə ki, vəziyyət kirtikdir, yaxud təhlükə var, oranı başqa formada layihələndirmək lazımdır. Yəni, hər küçəyə eyni qaydada sadəcə xətt çək, bu, düzgün deyil. Hər bir nəqliyyat vasitəsi nəzərə alınmalıdır".

# “TƏHSİLDƏ YENİ ÇAĞIRIŞLAR”

**Dünya Təhsil Forumunun direktoru Dominik Savaj: “Hazırda süni intellektin mövcudluğunu göstərərək deyirlər ki, gələcəkdə bu peşəyə ehtiyac olmayacaq. Bu, səhv yanaşmadır. Müəllim həmişə insanın kim olduğunu öyrədəcək şəxs olacaq”.**



Bakıda “Təhsildə Yeni Çağırışlar” adlı V Beynəlxalq Forum keçirilib. Forumda dünyada baş verən iqlim dəyişiklikləri, məktəblilərin yaşıl bacarıqları, bu mövzuların tədris prosesindəki rolu və sair barədə danışılıb.

### YETMİŞ FAİZ GƏNC İQLİM DƏYİŞİKLİYİNİ İZAH EDƏ BİLMİR

Dünya Təhsil Forumunun direktoru Dominik Savaj bildirib ki, dünyada 70 % gənc iqlim dəyişikliyini izah edə bilmir. Onun sözlərinə görə, dünya ölkələri bunu öz milli sistemində izah etməyi bacarmalıdır: “Ümumiyyətlə, məktəbdən kənarda baş verənlər məktəb daxilinə girməməlidir”.

D.Savaj Böyük Britaniya təcrübəsini nümunə gətirərək vurğulayıb ki, müəllimləri işə qəbul edərkən ilk sual “şagirdləri sevirsinizmi” olur: “Hazırda süni intellektin mövcudluğunu göstərərək deyirlər ki, gələcəkdə bu peşəyə ehtiyac olmayacaq. Bu, səhv yanaşmadır. Müəllim həmişə insanın kim olduğunu öyrədəcək şəxs olacaq”.

Direktor bildirib ki, məktəblər “yaşıl bacarıqlar”ı effektiv inkişaf etdirmək üçün təşəbbüslər həyata keçirə bilər: “Dünya iqlim dəyişikliyinin təsirləri ilə mübarizə apararkən, adətən, onun təhsilə təsiri nəzərdən qaçırılır. Halbuki planetin artan temperaturu və istilik dalğaları təkcə ətraf mühiti təhdid etmir, həm də bütün dünyada milyonlarla uşağın təhsilinə mane olur”.

### COP29 YAXŞI FÜRSƏTDİR

D.Savaj vurğulayıb ki, uşaqlarda “yaşıl bacarıqlar”ın formalaşmasında COP29 yaxşı fürsətdir: “Ölkələrin kurikulum sistemində də iqlim dəyişikliyi mütləq nəzərə alınmalıdır. Son məlumatlar göstərir ki, təhsil sistemlərinin iqlim dəyişiklikləri qarşısında davam gətirməsi üçün təcili tədbirlər görülməlidir. İnkişaf etmiş iqlim dəyişikliklərinə həssas olan ölkələr iqlimə davamlı təcrübələr və fövqəladə vəziyyətə hazırlıq üzrə bacarıqlarını artırmaq üçün səylərini davam etdirirlər. Bundan əlavə, hökumətlər təhsil sektorunun planlaşdırılmasında iqlimə müqaviməti inteqrasiya edən siyasi islahatlar həyata keçirirlər. Bu təşəbbüslər yaşıllaşdırma bacarıqlarını təşviq edir, uşaqları və gəncləri iqlimə uyğun ağıllı həll yolları və yerli iqlimin qorunması təbliğatına cəlb edir”.

### BACARIQLI KADRLAR TAPMAQDA ÇƏTİNLİK ÇƏKİLİR

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru, Beynəlxalq Tələbə Qiymətləndirmə Proqramının (PISA) yaradıcısı Andreas Şleyxer isə bildirib ki, iqlim dəyişikliyi təhsilin dayanıqlı konsepsiyasına təsir edir. Onun sözlərinə görə, bəziləri bunu texnologiya və təhsil arasında yarış hesab edir. “Texnologiya insanların bacarıq və vərdişlərindən öndə gedir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da bacarıqlı kadrlar tapmaqda çətinlik çəkilir. Dayanıqlı inkişaf üçün təhsilin olması önəmlidir. Gənclər gələcəyin qayğısına qala bilirmi? Müqavimət və tarazlılıq bu məsələdə vacibdir.

“Əvvəllər mövcud olmayan işləri bundan sonra görə biləcəyikmi? Bu barədə emosional zəka önəmlidir. Gənclərin qayğısına qalmalıyıq ki, ətraf mühitin qorunması üçün maraq göstərsinlər. Davranış müxtəlif formalarda bizə faydalı ola bilər. Təhsil bu baxımdan gənclər üçün müəyyən məlumatlılıq üçün yaxşı imkandır. Biliklərdən düzgün istifadə etmək lazımdır. Burada da təhsil ən güclü vasitədir”, - deyə Andreas Şleyxer vurğulayıb.

### GƏLƏCƏK ÜÇÜN ƏN YAXŞI SƏRMAYƏ TƏHSİLDİR



A.Şleyxer qeyd edib ki, planetin yaxşı gələcəyi üçün ən yaxşı sərmayə təhsildir: “Məktəbdə öyrənilənlərin heç də hamısı, təəssüf ki, şagirdlərin davranışlarına təsir etmir. PİSA beynəlxalq qiymətləndirmələrin nəticələri də bunu dəməyə əsas verir. Gənclər iqlim dəyişikliyinin problemlərini təkcə başa düşməklə kifayətlənməməlidirlər. Güclü öyrənmə strategiyaları mənimsənilməlidir. Onlar passiv sərnişin misalından sükan arxasına keçə biləcək şəxslərə çevrilməlidir. Başa düşməlidirlər ki, onlar fərq yarada bilərlər. Yeni iş yerləri yaratmağı bacarmalıyıq”.




# Azərbaycanda piroliz yağı istehsal ediləcək

Azərbaycanda piroliz yağının istehsalına dair birgə müqavilə imzalanıb. İqtisadiyyat Nazirliyinin bununla bağlı yaydığı məlumatda deyilir ki, sənəd iqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR prezidenti Rövşən Nəcəfin İtaliyanın “Technip Energies” şirkətinin İdarə Heyətinin üzvü və biznes üzrə baş direktoru Marko Villa ilə görüşü çərçivəsində imzalanıb.

Görüşdə bərpa olunan enerji ehtiyatlarına malik olan ölkəmizin “yaşıl artım” və davamlı inkişaf məkanına çevrilməsi məqsədilə xarici şirkətlərlə fəal əməkdaşlıq edildiyi, mövcud potensialın reallaşdırılmasında beynəlxalq təcrübənin və müasir texnologiyaların tətbiqinin önəmi qeyd olunub. Azərbaycanda beynəlxalq tərəfdaşlarla “yaşıl” enerjinin istehsalı istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib. Tərəflər aşağı karbonlu biznes həllərinə keçid və yeni əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Layihənin reallaşdırılması sənaye məhsullarının müxtəlifliyini və dayanıqlığını artıraraq, ölkənin təbii ehtiyatlarından daha səmərəli istifadəni təmin edəcək. Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa ediləcək zavodda ildə 36 000 ton plastikdən 23 000 ton piroliz yağı istehsal ediləcək. Layihədə AİŞ 30 %, “Technip Energies S.p.A.” 35 %, SOCAR isə 35 % iştirak paylarına sahibdir.

Tədbirdə “Plastik tullantılardan piroliz yağının istehsalı” layihəsi barədə təqdimat nümayiş olunub. Layihə üzrə tətbiq ediləcək piroliz yağı texnologiyası plastik tullantıların yüksək temperaturda parçalanması yolu ilə təkrar emal edilməsini təmin edir. Bu, tullantıların azaldılması və yanacaqlara alternativ yanacaq istehsalı ilə karbon izini azaldır.

60 illik təcrübəyə malik və 15 mindən çox işçi heyəti olan “Technip Energies” şirkəti 34 ölkədə dayanıqlı yanacaq, kimya, tullantıların emalı, qaz və aşağı karbon enerjisi, innovativ texnologiyalar, karbonsuz həllər sahələrində fəaliyyət göstərir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2280
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
5 OKTYABR ŞƏNBƏ 2024
www.kaspi.az

"QARABAĞ" - "MALMÖ" 1:2

Azərbaycan çempionu avrokuboklarda ardıcıl dördüncü oyunda məğlub olub. Bu ana olan nəticələrə əsasən, xalı olmayan Ağdam təmsilçisi 36 komanda arasında 34-cü yeri tutur. Yaxın tarixə nəzər salsaq, son illərdə "Qarabağ"ın belə uzun uğursuz seriyası olmayıb.



# "QARABAĞ"A NƏ OLUB?

Avropa Liqasındakı təmsilçimiz "Qarabağ" Liqa mərhələsinə uğursuz başlayıb. Komandamız Londonda oyunun əvvəlində bir nəfər azlıqda qalan "Tottenhem"ə 0:3 hesabı uduzduqdan sonra oktyabrın 3-də Bakıda keçirdiyi oyunda İsveç çempionu "Malmö"yə də uduzub - 1:2. Bu, "Qarabağ"ın avrokuboklarda ardıcıl aldığı dördüncü məğlubiyyət olub. Bu ana olan nəticələrə əsasən, 0 xalı olan Azərbaycan çempionu 36 komanda arasında 34-cü yeri tutur. Yaxın tarixə nəzər salsaq, son illərdə belə hallar olmayıb. Qurban Qurbanovun komandası daim azarkeşləri yaxşı nəticə ilə sevindirdiyindən, indi hamını bir sual düşündürür: "Qarabağ"a nə olub?

### MÜDAFİƏDƏ CİDDİ PROBLEMLƏR VAR

Məsələ burasındadır ki, ötən mövsümdən sonra komandada ciddi heyət dəyişikliyi də olmayıb. Çətin də olsa, əsas heyət qorunub saxlanılıb. Yalnız qapıda inamlı oyunu ilə yadda qalan Lunyov komandanı tərk edib. Amma onun əvəzinə də iki normal qapıçı transfer edilib. Bütün bunlara baxmayaraq, "Qarabağ" heç bir halda keçənilki komandaya bənzəmir. Əvvəlki illərdə bu komandanın qol vurması elə də asan olmasa da, müdafiəsi həmişə çox etibarlı olub. Son oyunlarda isə rəqibləri çox asanlıqla "Qarabağ"ın qapısına yol tapa bilirlər. Hətta "Sabah" belə oyunun əvvəlində hesabda üç top fərqi ilə geri düşməsinə baxmayaraq, qısa müddətdə bu topların ikisinin əvəzini çıxa bilir. Üçüncü topun vurulmasından isə ağdamlıları yalnız bəxt xilas edir. Beləliklə, avrokuboklarda keçirilən son altı oyunu və ölkə çempionatındakı "Sabah"la oyunu nəzərə alsaq, komandanın müdafiə xəttində ciddi problemlər var. Az qala qapı qarşısında yaranan hər təhlükəli vəziyyət qolla nəticələnir.

### LAZIMİ ANDA ÖTÜRMƏLƏRİN VERİLMƏMƏSİ, DEYİŞMƏLƏR

İkinci məqam psixoloji durumun pozulmasıdır. Zaqrebdə "Dinamo" ilə oyundan başlayaraq yaradılan imkanların boşa verilməsi, alınan məğlubiyyətlər oyunçuların özünəinamına ciddi təsir edib. Son iki oyunda ciddi şəkildə futbolçular arasında gərginlikləri də görürük. Lazımi anda ötürmələrin verilməməsi, bir-birilərilə deyişmələr və s. Hansı ki, Qurban Qurbanov son illərdə komandada çox yaxşı ab-hava yarada bilmişdi və "Qarabağ" bu xüsusiyyətlərə görə nümunə göstəriləcək komanda idi.

Üçüncü diqqət çəkən məqam bəzi oyunçuların idman formasında olmamasıdır. Məsələn, son oyunlarda gördüyümüz Romao keçənilki Romaodan çox fərqlənir. Medina zədədən sonra heç cür əvvəlki formasını bərpa edə bilmir. Əsas qol silahı Juniniyonun da məhsuldarlığı aşağı düşüb. "Malmö" ilə oyundakı Benzia da heç özünə oxşamırdı. Son oyunlarda Zubirin də əvvəlki driblinqlərini, kəskin ötürmələrini görə bilmirik.

Dördüncü məqam kimi, "Qarabağ"dakı zədəli oyunçuları göstərmək olar. Xüsusilə də Yankoviçin zədələnməsi meydanın mərkəzində ciddi disbalansa səbəb olub. Məhz bu səbəbdən "Malmö" ilə oyunda "Qarabağ" mərkəzdə rəqibinə nəzərəçarpacaq dərəcədə uduzdu.

## "QARABAĞ" FUTBOLUMUZUN SƏVİYYƏSİNDƏN XEYLİ İRƏLİ GEDİB

Bəs durum faciəvidirmi? Əlbəttə ki, yox! Futbolsevərlər əmindirlər ki, komandanı sıfırdan quran Qurban Qurbanov bu tənəzzülü də dayandıra və komandanı yenidən yüksəlişə keçirə biləcək. Hər bir komandanın bu cür düşüşlərinin olması, dibə vurması olur. Hətta "Real", "Barselona", "Mançester Siti" kimi komandalarda da belə dönəmlər yaşanır. Bizi təəccübləndirən odur ki, son illərdə "Qarabağ"da bu cür periodlar demək olar ki, olmayıb. Qeydə alınan uğursuz nəticələr dərhal aradan qaldırılıb və komanda ənənəvi uğur yoluna qayıdıb. Digər tərəfdən, biz qəbul etməliyik ki, neçə illərdir "Qarabağ" Azərbaycan futbolunun səviyyəsindən xeyli önə gedib. Futbolumuzun indiki durumuna nəzər alsaq, bizim çempionatı təmsil edən komanda uzaqbaşı Konfrans Liqasında oynamalıdır. Biz isə "Qarabağ"ın Çempionlar Liqasında mübarizə aparmasını istəyirik. Avropa Liqasında pley-offa vəsiqə istəyirik.

## QURBAN QURBANOV: "BİR İNSAN İLBOYU SAĞLAM OLA BİLMƏZ"



Qurban Qurbanovun özü də komandadakı problemləri etiraf edib. Oyundan sonra keçirilən mətbuat konfransında o, rəqibin layiqli qələbə qazandığını bildirib: "Ola bilər ki, komanda bu aralar öz oyun ritmindən uzaqlaşıb. Ümid edirəm ki, qarşıdakı vaxtlarda daha yaxşı olacağıq. Ola bilər ki, bir neçə futbolçumuzun zədəli olması oyun planımızda gerilməyə səbəb olub. Oyunçuların həvəsdən düşdüklərini deməzdim. Bəlkə də psixoloji yorğunluq var. Bu komandada həvəssizlik heç vaxt düşünülməyib. Sadəcə, əgər məğlub oluruqsa, düşünməliyik ki, əvvəl ola bilər daha istəkli idik. Bunu qəbul etməliyik. Bəziləri öz idman formasından uzaqdır. Bu, ölkə çempionatında görünməyə bilər. Amma Avropa oyunlarında hiss olunur. Biz daha yaxşı oynaya bilərik. Bəzi düşündüyüm xırda elementlər aradan qalxdıqda, belə olacaq. Bu oyun bir daha göstərdi ki, belə matçlarda daha çox motivasiya, dinamika olmalıdır, güc sərf etməliyik. Bu gün uduzsaq da, faydası olacaq. Bir insan ilboyu sağlam ola bilməz. Komandalar da hansısa müddət öz formasından uzaqlaşır. Biz belə hallarda daha da soyuqqanlı, daha da möhkəm olmalıyıq və komandanın problemi varsa, onu yoluna qoymalıyıq".



Qurban Qurbanov

**Fotolar:** Tapdiq Abdullayev/Global Media Group